Xalqın qəzeti!

# Xalq qəzeti

№ 220 (30336) 10 oktyabr 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Cənubi Qafqaz ölkələri əməkdaşlığa üçtərəfli formatda başlaya bilərlər və bir çox sahələr üzrə əməkdaşlıq çox uğurlu ola bilər. Azərbaycan ərazilərinin bir hissəsi uzun illər işğal altında olması imkan vermirdi ki, normallaşmaya doğru addımlar atılsın. İndi məqam gəlib çatıb və hesab edirəm ki, bu şansı əldən vermək böyük səhv olar.**

# Azərbaycan – Gürcüstan: Qafqaz evindən Avrasiyaya uzanan tərəfdaşlıq

## *Prezident İlham Əliyevin Gürcüstana işgüzar səfəri*

## Şota Rustaveli Beynəlxalq Hava Limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin dəvəti ilə oktyabrın 8-də Gürcüstana işgüzar səfərə gəlib.**

Azərbaycanın və Gürcüstanın Dövlət bayraqlarının dalğalandığı Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili və digər rəsmi şəxslər qarşıladılar.

## İlham Əliyevin İrakli Qaribaşvili ilə təkbətək görüşü



**Oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü olub.**

## Qaluzinin "Meğri marşrutu" və Zəngəzur dəhlizi ideyası

### *Rusiyanın Ermənistanı inandırması mümkündürmü?*



**"Meğri marşrutunun yaradılması Zaqafqaziyada ümumi sabitləşmə üçün çox mühüm amil olacaq". Bu fikri Rusiyanın xarici işlər nazirinin müavini Mixail Qaluzin RBK telekanalına müsahibəsində deyib. Məlumdur ki, Qaluzin Azərbaycanın Zəngəzur dəhlizi layihəsindən söz açır. O layihədən ki, hazırda Ermənistan onun əleyhinə çıxır.**

Ancaq İrəvan, həm də bütün platformalarda Rusiyaya qarşı zidd mövqe də ortaya qoyur. Bu anlamda Rusiya XİN başçısının müavininin fikirlərini, müəyyən mənada, İrəvana qarşı qlobal miqyaslı demarş kimi dəyərləndirmək mümkündür. Ancaq məsələ yalnız demarşda deyil. Çünki bu metodun faydasının olmadığı aşkardır. Rusiyanın Ermənistanı düz yola gətirməsi üçün başqa hansısa metod varmı, bu barədə yazının sonunda söz açacağıq.

*(ardı 4-cü səhifədə)*

## İrəvan Tbilisidən sülh çağırışını eşidəcəkmi?



**Əsrlər boyu səyyahları, salnaməçiləri, şair və yazıçıları, daha kimləri özünə cəlb edən Qafqaz həm də iki qitənin qovuşduğu bir məkandır. Amma burada "külək" təkcə Şərqdən və Qərbdən deyil, hərdən Şimaldan və Cənubdan da əsir. Məhz bu zaman bölgənin siyasi ab-havası dəyişir. İqlim qurşaqları ilə yanaşı, siyasi cərəyanların da toqquşduğu ərazilərdə "tufan və qasırğaların, burulğanların" əmələ gəlməsi də təbiidir.**

Qafqazın havası, həm də bu səbəbdən düzəlmir. XXI əsrdə başları üzərindən qara buludların çəkilməsini, davaların qurtarmasını gözləyən 3 Qafqaz dövləti (Azərbaycan, Gürcüstan və Ermənistan) 32 ildir müstəqildir. Amma, təəssüf ki, öz sərhədi, bayrağı, milli pulları olan bu dövlətlərin vətəndaşları hər gün kənar və uzaq dövlətlərin adlarını təkrarlayır: Rusiya, İran, ABŞ, Fransa... Demək olar ki, hər gün bu böyük güclərin baş kəndlərindən Bakıya, Tbilisiyə və İrəvana tövsiyə, dəvət kimi, təzyiq zəngləri də gəlir. Yəni, bu üç dövlətin kiçik Qafqazda necə yaşamasını, hansı qərarlar qəbul etməsini həmin "böyüklər" müəyyən etməyə çalışırlar. Elə bil Cənubi Qafqaz onlar üçün seleksiya zonası, eksperiment laboratoriyası, yarışların keçirildiyi tatami döşəyi olub...

*(ardı 3-cü səhifədə)*

## Ermənistanın Azərbaycana "işğalçı" deməsi gülüş doğurur

**Ermənistan və ümumilikdə erməni dünyası hazırda çox aktiv şəkildə bir məsələni beynəlxalq ictimaiyyətin diqqətinə sırımaqdadır. Guya, Azərbaycan Ermənistanın suveren ərazisinə hücum edəcək.**



Qeyd edək ki, əvvəllər bununla əlaqədar fikirlər daha çox müxalifət nümayəndələri tərəfindən dövriyyəyə buraxılırdısa və məqsəd baş nazir Nikol Paşinyan iqtidarını gözdən salmaq idisə, hazırda Ermənistanın hakim komandası da belə bir ritorikanı geniş şəkildə tirajlamaqdadır. Görünür, "məsələnin" ən aktiv təbliğatçısı Ermənistanın Avropa İttifaqındakı səfiri Tiqran Balayandır (Bədnam Zori Balayanın tör-töküntülərindən də ola bilər– red.). Balayan son iki həftədə verdiyi artıq ikinci müsahibədə haqqında söz açdığımız fikri gündəmə gətirməkdədir. Əvvəl "Reuters"ə, indi isə "Brüssel Signal"a müsahibəsində səfir ölkəmizi işğalçı kimi qələmə verib.

Əslində, istər Balayanın, istərsə də digər balayanların, eləcə də onların xaricdəki dəstəkçilərinin, belə demək mümkünsə, isterik demarşına, bəlkə də, əhəmiyyətsiz yanaşmaq mümkündür. Ancaq hesab edirik ki, Azərbaycan–Ermənistan sülh gündəliyinin aktivləşməyə doğru getdiyi hazırkı məqamda məsələyə diqqət yetirmək şərtdir. Çünki belə yolverilməz ritorika İrəvanın sonrakı davranışlarının anonsudur. Bunu keçmişin təcrübəsində çox görmüşük.

İlk proqnozumuz budur ki, Ermənistan Azərbaycan ərazisinə hücuma hazırlaşır, sadəcə olaraq, niyyətini pərdələmək istəyir. Balayanlar isə mümkün intervensiyaya görə Bakını günahkar çıxarmaq yolunu tuturlar. Təxminən belə: Azərbaycan hücum etdi, biz müdafiə olunduq. "Ən yaxşı müdafiə hücumdur" deyiminin ortaya çıxması proqnozlaşdırılandır. Yəni, "hücum Azərbaycan ərazisindəki təhlükə nöqtələrini susdurmaq məqsədilə gerçəkləşdirilib" deyilə bilər.

Əlbəttə, sonuncu vurğuladığımız məqam, daha doğrusu, Azərbaycana hücum Ermənistan və dünya erməniliyi üçün yalnız yuxudur. Ancaq tipik erməni xəstəliyi bu barədəki düşüncələri ikinci plana çıxarmayıb. Axı, erməni avantürizmi canını tapşırmayıb. Həm də ona görə ki, Balayandan başqa da cəfəng fikirləri gündəmə gətirənlər var. Məsələn, Ermənistan parlamentinin spikeri Alen Simonyan da Azərbaycanın Ermənistan ərazisinə hücuma keçəcəyi barədə sərsəm fikirlər irəli sürməkdədir. Söhbət İrəvan üçün təhlükə mənbələrinin susdurulması məntiqindən gedirsə, otuz ilə yaxın müddətdə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə daxil olmayan rayonların işğalda saxlanılmasından söz açmaq mümkündür. Erməni siyasi dairələri bildirirdilər ki, ətraf rayonların tutulması "Dağlıq Qarabağ Respublikası"nın təhlükəsizliyinin təminatı məqsədi daşıyır. Əlbəttə, bu, ərazi iddiasına haqq qazandırmaq yönümlü cəfəngiyat idi.

*(ardı 6-cı səhifədə)*

## Ağbənd körpüsü Naxçıvana açılan qapıdır

Səhifə ⇨ 7

## Türk xalqları filmlərinin Bakı paradı

Səhifə ⇨ 10





## Heydər Əliyevin 100 illiyinə həsr edilmiş fotosərgi ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili oktyabrın 8-də Tbilisidə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "The Architect of Prosperity" – "Firavanlığın memarı" adlı fotosərgi ilə tanış olublar.**

Dövlətimizin başçısına və Gürcüstanın Baş nazirinə sərgi ilə bağlı məlumat verildi. Qeyd olundu ki, Azərbaycanı müasir və iqtisadi cəhətdən çiçəklənən ölkəyə çevirən Ümummilli liderə ehtiramın ifadəsi olan bu sərgi Ulu öndərin bütün həyatını dövlətçiliyimizə və xalqımıza həsr etməsindən və ölkənin gələcək inkişafının əsasını necə müdrikliklə qoymasından bəhs edir.

Sərgidə Ulu öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinə qayğısını, gənclərlə görüşlərini əks etdirən fotolar yer alıb. Ekspozisiyanın Azərbaycan-Gürcüstan münasibətlərinə həsr edilmiş guşəsində Ulu öndər Heydər Əliyevin Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadze, həmçinin Prezident İlham Əliyevin Baş nazir İrakli Qaribaşvili ilə görüşlərindən də fotoşəkillər nümayiş olunur.

## İrakli Qaribaşvilinin adından Prezident İlham Əliyevin şərəfinə nahar verilib

**Oktyabrın 8-də Tbilisidə Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar verilib.**

## Prezidentin Gürcüstan səfəri başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfəri oktyabrın 8-də başa çatıb.**

Azərbaycanın və Gürcüstanın Dövlət bayraqlarının dalğalandığı Tbilisi şəhərinin Şota Rustaveli Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Gürcüstanın Baş naziri İrakli Qaribaşvili yola saldı.

***AZƏRTAC***

## Siyəzən rayonunun Siyəzən–Dağ Quşçu–Ərziküş avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bir min nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən Siyəzən–Dağ Quşçu–Ərziküş avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.9-cu yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 8,8 milyon (səkkiz milyon səkkiz yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 oktyabr 2023-cü il**

## İrakli Qaribaşvili: ölkələrimiz ikitərəfli əlaqələrə xüsusi diqqət yetirir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə çox yaxşı görüşüm oldu. Gürcüstan və Azərbaycan ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə, həmçinin iqtisadi artımın gücləndirilməsinə xüsusi diqqət yetirirlər.**

Bu barədə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili özünün X sosial şəbəkə hesabında yazıb.

Hökumət başçısı qeyd edib ki, xalqlarımızın mənafeyi naminə Gürcüstan və Azərbaycan ticarət, enerji, infrastruktur, davamlı inkişaf üçün potensial birgə layihələrin müəyyənləşdirilməsi üzərində işləyirlər.

# Liderlər mətbuata bəyanatlarla çıxış ediblər



**Oktyabrın 8-də Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Gürcüstanın Baş naziri bəyanatla çıxış etdi.**

### Baş nazir İrakli Qaribaşvilinin bəyanatı

- Bizim çox hörmətli qonağımız, əziz dostumuz cənab İlham Əliyevi salamlayıram.

Cənab Prezident, Sizi Gürcüstanda görməyə şadam. Sizi və nümayəndə heyətinizi salamlayıram, Gürcüstana səfərə gəldiyinizə görə təşəkkür edirəm. Onu da demək istəyirəm ki, biz ənənəmizi davam etdiririk, tez-tez səfərlər edirik. Bir neçə ay bundan əvvəl mən Qəbələdə səfərdə idim. Cənab Prezident, orada mənə göstərilən çox səmimi qonaqpərvərliyə görə təşəkkür edirəm. Keçən il bu vaxt da biz Sizi Gürcüstanda qəbul edirdik. Mən çox şadam ki, səfərlərimiz tez-tez həyata keçir. Əlbəttə ki, mən bir neçə aydan sonra Azərbaycana növbəti səfərə gələcəyəm.

Biz cənab Prezidentlə çox məhsuldar görüş keçirdik, müzakirələr apardıq. Cənab Əliyev ilə biz hazırkı strateji tərəfdaşlığımızı və əməkdaşlığımızı müzakirə etdik. Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır, dost ölkədir. Bizim ölkələrimiz arasında əsrlər boyu dostluq və qardaşlıq münasibətləri olub. Xalqlarımız arasında ənənəvi dostluq davam edir və cənab Prezident İlham Əliyev bu işə çox böyük töhfə verib. Bu dostluğun və qardaşlığın möhkəmləndirilməsində onun böyük xidmətləri var.

Biz, həmçinin iqtisadi əlaqələri və ticarəti müzakirə etdik. Enerji, nəqliyyat və logistika sahələrində əməkdaşlığı nəzərdən keçirdik. Azərbaycan Gürcüstanın əsas ticarət tərəfdaşlarından biridir və hər il ilk beşlikdə yer alır. Bu il bizim ticarətimizin həcmi 15 faiz artmışdır. Ötən il də rekord göstəricilərə nail olmuşuq. Yəni, biz hər bir sahədə uğurla əməkdaşlıq edirik. Dəmir yolları sahəsində də əməkdaşlıq uğurla davam edir.

Biz Orta Dəhliz layihəsinin inkişaf perspektivlərini nəzərdən keçirdik. Bildiyiniz kimi, biz işlərimizi Azərbaycanla və Qazaxıstanla əlaqələndiririk ki, bu layihə ən səmərəli şəkildə icra edilsin. Buraya dəmir yollarının müasirləşdirilməsi, limanların inşası və genişləndirilməsi, avtomobil yollarının inkişafı və müasirləşdirilməsi daxildir. Bilirəm ki, Azərbaycan da bu istiqamətdə genişmiqyaslı işlərə başlayıb. Biz Gürcüstanda dəmir yollarının müasirləşdirilməsinə başlamışıq. Bu iş 2024-cü ilin sonunadək başa çatdırılacaq və onun yükdaşıma qabiliyyəti iki dəfə artırılacaq.

Biz, həmçinin tezliklə Anakliyada yeni limanın inşasına başlayacağıq. Onun sonuncu mərhələsi hazır olandan sonra limanın yükaşırma qabiliyyəti 100 milyon ton olacaq. Bununla yanaşı, Şərq-Qərb magistral yolunun tikintisi də tezliklə yekunlaşacaq. Əlbəttə ki, biz bütün bu layihələr üzrə Azərbaycanla əməkdaşlıq edirik. Daha bir tarixi layihənin icrası da bir neçə aya başa çatacaq. Mən Baku-Tbilisi-Qars layihəsini nəzərdə tuturam, orada işlər uğurla davam edir və bir neçə aydan sonra bitəcək.

Beləliklə, bizim aydın perspektivlərimiz və uzaqgörən baxışımız var. Biz Azərbaycanla uzunmüddətli strateji tərəfdaşlıq və dostluq arzu edirik və mən bizim birgə baxışımıza inanıram.

Əlbəttə ki, biz təhlükəsizlik məsələlərini - həm regionda, həm də qlobal müstəvidə cərəyan edən hadisələri müzakirə etdik. Hazırda vəziyyət kifayət qədər gərgindir.

Mən bir daha cənab Prezidentə onu da bildirdim ki, biz Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik. Biz Azərbaycana da təşəkkürümüzü bildiririk ki, Azərbaycan da öz növbəsində hər zaman Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Onu da qeyd etdik ki, bizim böyük ümidlərimiz var ki, Azərbaycan və Ermənistan sülh sazişini imzalayacaq. Bu baxımdan da bizim Cənubi Qafqazda sülh gündəliyi ilə bağlı fikirlərimiz tam üst-üstə düşür. Ümidvarıq ki, bu bölgədə sülh davamlı olacaqdır və ölkələrimizin firavanlığına xidmət edəcəkdir, həm də Azərbaycan, Ermənistan və Gürcüstan xalqları üçün.

Biz burada - Gürcüstanda hər zaman qərəzsiz mövqeyə malik olmuşuq, biz bu gün də hazırıq ki, bu məsələyə töhfə verək. Biz istəyirik ki, bu məsələdə vasitəçilik edək və istənilən dostluq formatını təqdim etməyə hazırıq. Bizim gələcəyimiz dinc, sabit olmalıdır və Cənubi Qafqazın hər üç ölkəsi regional məsələləri özləri həll etməlidir.

Eyni zamanda, onu da qeyd etmək istəyirəm ki, cənab Prezidentin atası mərhum Prezident Heydər Əliyevin bizim dostluğumuzun inkişafında müstəsna xidmətləri və töhfəsi olub, onun təməlini o qoyubdur. Biz burada Heydər Əliyevin 100 illiyinə həsr edilmiş sərgi ilə də tanış olduq. Mən fürsətdən istifadə edərək cənab Prezident İlham Əliyevi və Azərbaycan xalqını bu münasibətlə də təbrik edirəm.

Əziz dost, bir daha Sizi burada salamlayıram. Sizin ölkənizə sülh, inkişaf və uğurlar diləyirəm. Təşəkkür edirəm.

***

**Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Baş nazir.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, cənab Baş nazir, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Tbilisi şəhərinin bu gözəl, füsunkar təbiətə malik guşəsində olmaq mənim üçün çox xoşdur və burada yaradılmış şərait də göz oxşayır. Cənab Baş nazirlə söhbət əsnasında mən qeyd etdim ki, Gürcüstanın bütün ərazisi təbiət nöqteyi-nəzərindən çox gözəldir. Ən böyük gözəllik və ən böyük sərvət isə gürcü xalqıdır.

Biz iki lider kimi ölkələrimiz və xalqlarımız arasındakı dostluq, qardaşlıq əlaqələrini gücləndiririk, möhkəmləndiririk, öz səylərimizi əsirgəmirik. Cənab Baş nazir qeyd etdiyi kimi, bizim ənənəvi görüşlərimiz bu məqsədə xidmət edir ki, ölkələrimiz bir-birinə daha yaxın olsun, xalqlarımız bir-biri ilə daha da sıx dostluq etsin. Əsrlər boyu bizim xalqlarımız mehriban qonşuluq və dostluq şəraitində yaşamışdır, bu gün də bu, belədir. Bu, həm ölkələrimiz üçün vacibdir, eyni zamanda, bölgə üçün, o cümlədən ilk növbədə Cənubi Qafqaz üçün çox vacib olan bir şərtdir.

Fürsətdən istifadə edərək, hörmətli cənab Baş nazir, Ulu öndər Heydər Əliyevin xatirəsinə Gürcüstan hökuməti və xalqı tərəfindən göstərilən hörmətə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Qeyd olunduğu kimi, bu il ilboyu Azərbaycanda, bir çox ölkələrdə, o cümlədən Gürcüstanda Heydər Əliyevin 100 illiyi qeyd edilir. Bu gün burada nümayiş etdirilən sərgidə bir şəkil diqqətimizi daha çox cəlb etdi, Heydər Əliyev və Eduard Şevardnadzenin şəklidir. Onların dostluğunun çox böyük tarixçəsi var. Sovet dövründə onlar bir-birilə sıx təmasda idilər və o vaxt sovet Gürcüstanının, sovet Azərbaycanının rəhbərləri kimi xalqlarımızı daha da birləşdirmək üçün böyük səylər göstərmişdilər. Bu iki parlaq şəxsiyyət sovet dövründə də öz istedadı, öz cəsarəti və öz xalqlarına olan bağlılığı ilə fərqlənirdi. Tale elə gətirdi ki, onlar təxminən eyni vaxtda müstəqil Gürcüstana və müstəqil Azərbaycana rəhbərlik etməyə başladılar. Xalqlarımız üçün ən ağır dövrdə, - o acı və ağrılı günləri biz xatırlayırıq, - məhz onların liderliyi sayəsində həm Gürcüstan, həm Azərbaycan inamla müstəqilliyə doğru addımlamağa başlamışdır. Məhz onların fəaliyyəti nəticəsində müstəqil Gürcüstan, müstəqil Azərbaycan inkişaf etməyə başlamışdır.

Biz - onların davamçıları, bu gün onların yolu ilə gedirik. Təbii ki, bu gün Gürcüstan və Azərbaycan qat-qat daha inkişaf etmiş ölkələrdir. Ancaq çağırışlar demək olar ki, eynidir, problemlər eynidir. Cənubi Qafqazda sülh hələ ki, tam bərqərar olunmayıb və bu gün cənab Baş nazirlə söhbət əsnasında, o cümlədən bu məsələyə də toxunduq. Cənubi Qafqazda sülhün bərqərar olmasının vaxtı çatıb. Baş nazir qeyd etdiyi kimi, biz hər zaman bir-birimizin ərazi bütövlüyümüzü, suverenliyimizi dəstəkləmişik və dəstəkləyirik. Bütün beynəlxalq təşkilatlarda xalqlarımızın bu və digər maraqlarını əks etdirən məsələlərdə bir-birimizi dəstəkləyirik və bir-birimizin yanındayıq. Ölkələrin ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir və ərazi bütövlüyünün pozulması qəbuledilməzdir. Azərbaycanın bu məsələ ilə bağlı mövqeyi birmənalıdır.

Biz bu gün, eyni zamanda, Ermənistan-Azərbaycan normallaşma prosesinə də toxunduq. Üç il bundan əvvəl İkinci Qarabağ müharibəsinin nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir, keçən ay bütün ölkə üzrə suverenliyini bərpa etmişdir. İndi isə biz Ermənistanla Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi üzərində fəal çalışmalıyıq. Əgər biz buna nail olsaq, - mən buna ümidliyəm, - o zaman Cənubi Qafqazda tamamilə yeni bir siyasi vəziyyət yaranacaq. Cənubi Qafqaz ölkələri əməkdaşlığa üçtərəfli formatda başlaya bilərlər və bir çox sahələr üzrə əməkdaşlıq çox uğurlu ola bilər, nəqliyyat, enerji təhlükəsizliyi, ticarət, qarşılıqlı sərmayə qoyuluşu, bütün bunlar, mümkündür. Sadəcə olaraq biz bundan məhrum idik, ona görə ki, Azərbaycan ərazilərinin bir hissəsi uzun illər işğal altında idi və təbii ki, bu vəziyyət imkan vermirdi ki, normallaşmaya doğru addımlar atılsın. İndi məqam gəlib çatıb və hesab edirəm ki, bu şansı əldən vermək böyük səhv olar.

Bildiyiniz kimi, bu gün bir neçə ölkə və eyni zamanda, bəzi beynəlxalq təşkilatlar Ermənistan və Azərbaycan arasında gedən normallaşma prosesində öz dəstəyini göstərməyə çalışırlar. Biz bunu alqışlayırıq. Əgər bu, birtərəfli və qərəzli deyilsə, əlbəttə, biz istənilən vasitəçiliyi və yardımı qəbul edirik. Ancaq mənim fikrimcə, ən düzgün seçim həm tarixi əlaqələri, həm coğrafi amili nəzərə alaraq, əlbəttə ki, bu sahədə Gürcüstan ola bilərdi. Mən cənab Baş nazirə minnətdaram ki, o da bu sahədə mümkün olan vasitəçilik imkanlarını ortaya qoyur. Hesab edirəm ki, biz buna hazır olan ölkə kimi Ermənistandan da eyni yanaşmanı gözləməliyik və Ermənistan tərəfindən də razılıq olarsa, dərhal bizim aidiyyəti qurumların rəhbərləri Gürcüstanda həm ikitərəfli, həm üçtərəfli görüşə gələ bilərlər.

O ki qaldı, bizim digər sahələrdəki əməkdaşlığa, cənab Baş nazir artıq qeyd etdi, həm enerji, həm nəqliyyat sahəsində çox böyük planlarımız var, əlbəttə ki, böyük uğurlarımız var. Həyata keçirilmiş layihələr haqqında danışmaq, hesab edirəm ki, əbəsdir, bunu hər kəs bilir. Sadəcə olaraq onu demək istəyirəm ki, bizim birgə həyata keçirdiyimiz enerji və nəqliyyat layihələri bu gün bir çox ölkələrin enerji və nəqliyyat təhlükəsizliyinə xidmət göstərir.

Həmçinin gələcək planlarımız üzrə birmənalı əməkdaşlığın dərinləşməsinə hesablanmış gündəlik vardır. Biz böyük məmnuniyyətlə Gürcüstanın yeni infrastruktur layihələrinin yaranmasında iştirak edə bilərik. Bu gün biz Anakliya limanının inşası ilə bağlı fikir mübadiləsi apardıq. Bildiyiniz kimi, Azərbaycanın Gürcüstanın Qara dəniz sahilində Kulevi limanı var, o limanın genişləndirilməsi, əlbəttə ki, əməkdaşlığımızı daha da gücləndirəcək. Təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun aşırma qabiliyyətinin 5 dəfədən çox artırılması və yaxın gələcəkdə fəaliyyətə başlaması da, əlbəttə, Orta Dəhlizin güclənməsinə xidmət göstərəcək.

Energetika sahəsində ənənəvi sahələrdən başqa bu gün bizi birləşdirən "Yaşıl enerji dəhlizi" layihəsidir. Burada da biz - yenə də Gürcüstan və Azərbaycan - iki qardaş ölkə Avropa ölkələri ilə sıx əməkdaşlıq edirik və yaxın aylarda bu layihənin texniki-iqtisadi əsaslandırması hazır olacaq. Əminəm ki, ondan sonra biz konkret işlərə start verə bilərik. Böyük sərmayə qoyuluşu nəzərdə tutulur və beləliklə, "Yaşıl enerji dəhlizi", enerji kabeli inşa edilərək həm bizim, həm də ki, tərəfdaş ölkələrin enerji təhlükəsizliyini gücləndirəcək.

Bir sözlə, bu gün Gürcüstanın və Azərbaycanın birlikdə və digər qonşu ölkələrlə birgə icra etdiyi layihələr böyük məna daşıyır, təkcə Cənubi Qafqaz regionu üçün deyil, böyük mənada Avrasiya üçün və biz buna hazırıq. Bizdə həm güclü siyasi iradə var, artıq yaradılmış güclü infrastruktur var. Ən əsas amil isə Gürcüstan-Azərbaycan dostluğu və strateji tərəfdaşlığıdır.

Sözümün sonunda bir məsələni də qeyd etmək istərdim. Mən Gürcüstana tez-tez gəlirəm və hər dəfə gələndə Gürcüstanın yeni bir guşəsi ilə tanış oluram. Hər dəfə həm Gürcüstanın gözəl təbiətinə bir daha heyran oluram, eyni zamanda, Gürcüstanda gedən tərəqqi prosesinə də çox böyük maraqla baxıram və sevinirəm. Cənab Baş nazirin rəhbərliyi ilə Gürcüstan inamla inkişaf edir, Gürcüstanda ictimai-siyasi sabitlik tam bərqərar olunub. Bu sabitliyin mənbəyi Gürcüstanda yaşayan vətəndaşların hökumətə olan dəstəyidir. Bu sabitlik və hökumətin aydın gələcəyə yönəlmiş baxışları imkan verir ki, bir çox önəmli layihələr icra edilsin, imkan verir ki, həm iqtisadiyyat artsın, infrastruktur layihələri icra olunsun və insanların rifah halı ildən-ilə yaxşılaşsın. Biz Gürcüstanın dostu kimi buna ürəkdən sevinirik.

Əldə edilmiş nailiyyətlər münasibətilə Sizi, cənab Baş nazir, bizim bütün gürcü qardaşlarımızı təbrik edirik. Qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirərək, cənab Baş nazir, Sizi Azərbaycana dəvət edirəm. Təşəkkür edirəm.

# XİN: Mühüm görüşlər, vacib müzakirələr

**Oktyabrın 9-da xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono ilə görüşüb.**



Görüş zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, regiondakı mövcud vəziyyət, Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası istiqamətində ölkəmiz tərəfindən atılan addımlar barədə fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov ölkəmizin ərazisində qanunsuz mövcudluğunu davam etdirən erməni silahlı qüvvələrinin növbəti təxribatlarına cavab olaraq başlayan antiterror tədbirləri, onları şərtləndirən səbəblər barədə qarşı tərəfi məlumatlandırıb.

Görüşdə nazir Ceyhun Bayramov, həmçinin Azərbaycan hökuməti tərəfindən ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası üzrə aparılan işlər barədə məlumat verib, hazırda tərəfimizdən yaradılmış elektron portal vasitəsilə yerli erməni sakinlərin qeydiyyatı prosesinin aparıldığını diqqətə çatdırıb.

Erməni sakinlərin Azərbaycan ərazisini tərk etməsinin onların könüllü və fərdi qərarı əsasında baş verdiyi, bu addımın hər hansı bir məcburi yerdəyişmə ilə heç bir əlaqəsinin olmadığı, bunun həm Ermənistan baş naziri, həm də beynəlxalq təşkilatlar tərəfindən təsdiqləndiyi diqqətə çatdırılıb.

Ermənistan hökuməti tərəfindən səsləndirilən qondarma “etnik təmizləmə” ilə bağlı bəyanatların Azərbaycanın yerli ermənilərin reinteqrasiyası prosesini pozmağa yönəldiyi bildirilib.





***

**Ceyhun Bayramov Tacikistanın xarici işlər naziri Sirojiddin Muhriddin ilə görüşüb.**

Dünən xarici işlər naziri Ceyhun Bayramov İqtisadi Əməkdaşlıq Təşkilatının xarici işlər nazirlərinin Şuşada keçiriləcək 27-ci İclasında iştirak məqsədilə Azərbaycanda səfərdə olan Tacikistan Respublikasının xarici işlər naziri Sirojiddin Muhriddin ilə görüşüb.

Görüş zamanı Azərbaycan və Tacikistan arasında ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri, çoxtərəfli platformalarda əməkdaşlıq, habelə regional məsələlər müzakirə edilib.

***

**Oktyabrın 9-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclası çərçivəsində ölkəmizdə səfərdə olan İran İslam Respublikasının xarici işlər nazirinin müavini Mehdi Səfərini qəbul edib.**

Görüş zamanı Azərbaycan-İran münasibətlərinin gündəliyində duran bir sıra məsələlər müzakirə olunub və son dövrlər həyata keçirilən qarşılıqlı yüksək səviyyəli səfərlərin və görüşlərin münasibətlərin daha da irəli aparılmasına öz müsbət töhfəsini verdiyi vurğulanıb.

***

**Oktyabrın 9-da Azərbaycanın sədrliyi ilə İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlərinin yüksək səviyyəli rəsmilərinin görüşü keçirilib. Tədbir xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin sədrliyi ilə baş tutub.**

Görüşə oktyabrın 10-da Şuşa şəhərində keçiriləcək İƏT-in Xarici İşlər Nazirləri Şurasının 27-ci iclasına hazırlıq və təşkilatçılıq məsələləri, habelə tədbirin gündəliyində duran sənədlər müzakirə olunub.

**XQ**

# Milli Məclisin nümayəndə heyəti Rumıniyada



**Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti oktyabrın 9-da Rumıniyanın paytaxtı Buxarest şəhərinə rəsmi səfər edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, Azərbaycan nümayəndə heyətinə Milli Məclisin Rumıniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azay Quliyev, qrupun üzvləri – parlamentin komitə sədri Musa Quliyev, deputat Aqiyə Naxçıvanlı və digər rəsmi şəxslər daxildirlər.

**XQ**

# Şimali Kiprin xarici işlər naziri Azərbaycana gəlib

**Şimali Kipr Türk Cümhuriyyətinin xarici işlər naziri Tahsin Ertuğruloğlu Azərbaycanda səfərdədir.**



O, bu gün Şuşada keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatının 27-ci Nazirlər Şurasının iclasında iştirak etmək üçün Azərbaycana gəlib.

**XQ**

# BMT missiyası yenidən Qarabağdadır



**Birləşmiş Millətlər Təşkilatı (BMT) missiyasının Qarabağa növbəti səfəri başlayıb.**

Heyət dünən səhər saatlarında Ağdam-Əsgəran-Xankəndi istiqamətində missiyasını həyata keçirməyə başlayıb.

Xatırladaq ki, BMT müşahidəçiləri oktyabrın 1-də Qarabağda olublar. Missiyanın məqsədi vəziyyətlə yerində tanış olmaq və sakinlərin humanitar ehtiyaclarını müəyyən etməkdir.

**XQ**

# İrəvan Tbilisidən sülh çağırışını eşidəcəkmi?

## Yaxın qonşu uzaq qohumdan yaxşıdır

**(əvvəli 1-ci səhifədə)**

SSRİ dağıldı, Cənubi Qafqazın üç respublikası da müstəqil oldu. Fəqət Rusiya hələ bölgədən getməyib. O, Azərbaycanda (Qarabağ), Ermənistanda (Gümrü) və Gürcüstanda (Abxaziya və Cənubi Osetiya) qalmaqdadır. Bu, azmış kimi, son vaxtlar ABŞ, Fransa və Avropa İttifaqının da Qafqaza əl-ayağı uzanıb. İran da regiona soxulmaq üçün məqam gözləyir. Uzun sözün qısası, hazırda Cənubi Qafqazda gəlmələrin, yadellilərin tıxacı yaranıb. Böyük və Kiçik Qafqaz dağlarının həm zirvələrindən, həm də ətəklərindən pay uman kənar güclərin hərəsinin öz marağı var. Yüz il, iki yüz bundan əvvəl olduğu kimi, bu maraqlar yenə kəllə-kəlləyə gəlib.

Azərbaycanın müzəffər Ordusu 44 günlük müharibədə şanlı Zəfərə imza ataraq əzəli və tarixi torpaqlarımızın böyük hissəsini işğaldan azad etdikdən sonra ölkə Prezidenti İlham Əliyev Cənubi Qafqazda yeni əməkdaşlıq və regional təhlükəsizlik mühitinin yaradılması ideyasını irəli sürdü. O, bölgədə üçtərəfli əlaqələrin inkişafı üçün bütün addımları atmağa hazır olduğunu bəyan etdi. Dövlətimizin başçısı dəfələrlə deyib ki, sülh vasitəçiliyində Moskvanın, Vaşinqtonun, Brüsselin səylərini təqdir edir. Amma İlham Əliyevin çıxışlarını diqqətlə izləyənlər onu da bilir ki, Prezidentin heç vaxt bu ölkələrin vasitəçiliyinə ayrılıqda etibarı olmayıb. Bu prizmadan yanaşanda Tbilisi sülh sazişinin imzalanacağı şəhər kimi daha optimal variant hesab oluna bilər.

Aydındır ki, Cənubi Qafqaz respublikaları arasında münasibətlərin yeni müstəviyə daşınmasının təməl şərti qarşılıqlı olaraq ərazi bütövlüyü prinsipinə hörmət edilməsi, Ermənistanın regionda əmin-amanlığın bərpası naminə Türkiyə və Azərbaycanla normal qonşuluq münasibətlərini qəbul etməsidir. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da son müsahibələrindən birində dedi, əlaqələrin normallaşması üçün rəsmi İrəvana daha bir fürsət verildiyini bildirdi. Ermənilər anti-türk siyasətindən əl çəkərək Qafqazdan Anadoluya qədər əsrlər boyu Türk dövlətlərinin hakimiyyəti altında olan ərazilərdə rahat yaşadıqlarını, ticarətdən siyasətə yüksək mövqelərə çatdıqlarını, hər dəfə Türk yüksəlişinin Avrasiyanın bütün xalqlarının həyatında uzlaşma, harmoniya və rifah mühütü yaratdığını unutmadan, ağıllı bir siyasət yolunu tutarlarsa, bütün Qafqaz xalqları ilə bərabər yenə fayda görəcək. Bundan başqa, region müxtəlif kənar güclərin mübarizə poliqonu olmaqdan çıxacaq və tərəqqi yoluna qədəm qoyacaq.

* * *

Hansı bucaqdan baxsaq da, Tbilisinin Bakı və İrəvan arasında sülhə nailma yolunda vasitəçiliyi, ilk növbədə, Ermənistan üçün faydalıdır. Azərbaycan Prezidenti İlham Əliyev İrəvanla sülh danışıqlarında Gürcüstanın vasitəçiliyinə müsbət yanaşır. Cənab Prezident bu barədə fikirlərini bir neçə dəfə bildirib.

“Bu gün bir neçə ölkə və eyni zamanda, bəzi beynəlxalq təşkilatlar Ermənistan və Azərbaycan arasında gedən normallaşma prosesində öz dəstəyini göstərməyə çalışırlar. Biz bunu alqışlayırıq. Əgər, bu, birtərəfli və qərəzli deyilsə, əlbəttə, biz istənilən vasitəçiliyi və yardımı qəbul edirik. Ancaq mənim fikrimcə, bu sahədə ən düzgün seçim həm tarixi əlaqələri, həm də coğrafi faktoru nəzərə alaraq, əlbəttə ki, Gürcüstan ola bilər”.

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 8-də Tbilisidə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə birgə mətbuata bəyanatında deyib. Gürcüstanın bu məsələdə mümkün vasitəçilik imkanlarını ortaya qoyduğuna görə Baş nazir İrakli Qaribaşviliyə minnətdarlığını bildirən dövlətimizin başçısı əlavə edib: “Hesab edirəm ki, biz buna hazır olan ölkə kimi Ermənistandan da eyni yanaşmanı gözləməliyik. Əgər Ermənistan tərəfindən də razılıq olarsa, dərhal bizim aidiyyəti qurumların rəhbərləri Gürcüstanda həm ikitərəfli, həm də üçtərəfli görüşə gələ bilərlər”.

Yeri gəlmişkən, Ermənistan baş naziri Nikol Paşinyan da Gürcüstana mütəmadi səfərlər edir, qonşu dövlətlə strateji tərəfdaşlıqdan danışır, ancaq Tbilisinin vasitəçiliyi ilə bağlı fikir bildirməkdən yayınır. İkitərəfli sülh sazişinin imzalanması üçün Tbilisi ən münasib məkandır. Buna Brüssel, Vaşinqton, Ankara, hətta Moskva da etiraz etməz.

* * *

“Bizim Azərbaycanla çox gözəl ikitərəfli münasibətlərimiz var. Ölkələrimiz böyük layihələrdə birgə iştirak edir. Bakı və Tbilisi regional əhəmiyyətli infrastrukturun qlobal əhəmiyyət qazanmasına çalışırıq və buna nail olmuşuq”. Bu sözləri Gürcüstan Baş nazirinin sabiq müavini Eka Tkeşelaşvili bir il bundan əvvəl IX Qlobal Bakı Forumu çərçivəsində keçirilən panel müzakirədə deyib. Xanım Tkeşelaşvilinin sözlərinə görə, Azərbaycanın əzəli torpaqlarının işğaldan azad olunması onu göstərir ki, sülhə doğru addım atıla bilər: “Gürcüstan hökuməti bu sülh danışıqlarına yardım etməyə, təmsil olunmağa hazırdır. Azərbaycan və Gürcüstan bu prosesdə maraqlıdır”. Baş nazirin sabiq müavini deyib ki, Gürcüstan iki xalqı yaxınlaşdırmaq istəyir: “Bu, sülhün bərqərar olmasına töhfə verəcək. Gürcüstan Azərbaycan və Ermənistandan olan nümayəndələrin görüşlərinin keçirilməsinə evsahibliyi edə bilər”. O, həmçinin xatırladıb ki, Gürcüstanın ərazi bütövlüyünün bərpası məsələsi hələ də dünya ictimaiyyətinin gündəmindədir.

Sabiq nazir müavini Eka Tkeşelaşvilinin ardınca Gürcüstan parlamentinin spikeri Şalva Papuaşvili erməni həmkarı Alen Simonyanla keçirdiyi brifinqdə deyib: “Gürcüstan Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq nümunəsinə çevrilməsi üçün Ermənistan və Azərbaycan arasında vasitəçi kimi davam etməyə hazırdır”. O, ümidvar olduğunu bildirib ki, Qafqaz xalqları ən çətin anlarda belə öz müdrikliyi və əməkdaşlığı ilə sülhsevər gələcək qura biləcəklərini ilk növbədə gənc nəsilə göstərə biləcəklər. Baş nazir İrakli Qaribaşvili keçən həftə Ermənistana səfəri zamanı müəyyən məsələlərlə yanaşı, vasitəçilik missiyasını da gündəmə gətirmişdi.

Bəli, İkinci Qarabağ müharibəsində hava məkanını İrəvanın üzünə bağlamaqla Ermənistana silah daşınmasının qarşısını alan Tbilisi indi ikitərəli danışıqlar meydanı kimi öz vasitəçiliyini təklif edir. Bölgədə sülhə və sabitliyə nail olmağın ən doğru yolu kimi görünən bu qonşuluq platforması, yuxarıda qeyd etdiyimiz kimi, həm də yadellilərin Qafqazdan ayağı yığışardı. Təbii ki, burada son sözü qalib tərəfin nümayəndəsi – Prezident İlham Əliyev deyəcək.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Fikrət SADIXOV, politoloq**

Tbilisinin Bakı və İrəvan arasında vasitəçiliyi Cənubi Qafqazın hər üç ölkəsinin maraqlarına cavab verən variantdır. Azərbaycan bununla bağlı əvvəllər də müəyyən təkliflərini səsləndirmişdi. Bu variantın üstünlüyü ondan ibarətdir ki, burada hansısa üçüncü qüvvənin, dövlətin müdaxiləsi olmadan öz aramızda regionun problemlərini həll edirik. Daha doğrusu, müzakirələrin gedişində həll etməyə çalışırıq. Təbii ki, bu danışıqlarda Gürcüstan da maraqlı olmalıdır. Çünki Tbilisi Bakı ilə normal münasibətlərin və əməkdaşlığın inkişafında maraqlıdır. Eyni zamanda, rəsmi Tbilisi Azərbaycanın ərazi bütövlüyünü tanıdığını dəfələrlə bəyan edib. Hazırda Gürcüstanın özü də mürəkkəb geosiyasi durumdadır. Abxaziya və Cənubi Osetiya bölgələrinin işğal altında olması ilə bağlı ciddi qayğıları var.

Bu formatda gedəcək danışıqlarda bir çox məsələlər Ermənistandan asılıdır. Yəni, İrəvan süni maneələr, problemlər yaratmamalıdır. Gündəliyə salınacaq məsələlərin önündə sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması da daxil olmaqla, əlbəttə ki, ilk növbədə Azərbaycan və Ermənistan arasında imzalanacaq sülh sazişi gəlir. Şübhə etmirəm ki, sülh danışıqlarının məhz bu kontekstdə aparılması hər üç dövlətin maraqlarına cavab verir. Tbilisi görüşü həm də bölgənin gələcək inkişaf perspektivi üçün əhəmiyyət daşıyacaq.

**Ekspert rəyi**



**Tofiq ABBASOV, siyasi şərhçi**

Gürcüstan hakimiyyətində bu ideya çoxdan var. Hələ iki il əvvəl Prezident Salome Zurabişvili Tbilisinin Azərbaycan və Ermənistan arasında vasitəçi ola biləcəyini demişdi. Faktiki olaraq, Ermənistan odu söndürüb, külü ilə oynayır. Bütün proseslərin konturları bəllidir. Ermənistan müharibəni uduzub, qalib məlumdur. İndi gərək öz məğlubiyyətini tanısın və bunun ardınca ondan tələb olunanlar bəllidir. Sərhədlərin demarkasiya və delmitasiyası keçirilsin, sonra da sülh müqaviləsinə imza atılsın.

Düzünü desək, Gürcüstan Qərb tərəfindən Cənubi Qafqazda Ermənistandan və Azərbaycandan yaxın qəbul edilən ölkədir. Amma Gürcüstan ərazi bütövlüyünü təmin etməyib. İndi rəsmi Tbilisi bu məsələdə irəliləmək və Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsində özünü beynəlxalq aləmə arbitr kimi göstərmək istəyir. Bunu yeni imicdə, yeni formada etməyə çalışır. Amma indi artıq arbitrə ehtiyac qalmayıb. Ona görə ki, “Dağlıq Qarabağ” problem daha yoxdur. 2023-cü il sentyabrın 19-dək Rusiya, ABŞ, Fransa, Avropa İttifaqı Azərbaycanı sonsuz və səmərəsiz danışıqlar prosesinə cəlb etmək istəyirdilər. Bakı bir sutkaya belə cəhdlərin üstündən qalın bir xətt çəkdi. İndi Ermənistanın sülh müqaviləsi imzalamaqdan başqa çıxış yolu qalmayıb. Güc, söz və nəzarət Azərbaycandadır. Ermənilər reallıqla barışmalıdırlar.

# Cənubi Qafqazda sülh üçün yeni şanslar yaranıb

## Dövlət başçımız bu fikri Tbilisi səfərində səsləndirdi



**Dövlət başçımızın Gürcüstana bir günlük işgüzar səfəri, orada mühüm görüşlər keçirməsi və müzakirələr aparması barədə hazırladığımız qəzet materialının əvvəlində yada salaq ki, Azərbaycan Prezidentinin xarici siyasət kursunda yaxın qonşularla dostluq və tərəfdaşlıq münasibətlərinin genişləndirilməsinə xüsusi önəm verməsi ulu öndər Heydər Əliyevin bu istiqamətdəki addımlarının davam etdirilməsidir. Elə həmin üns'iyyətlərin öz müsbət nəticələrini verməsinin təməlində də bilavasitə ümummilli liderimizin tövsiyələri dayanır.**

Danılmaz faktdır ki, gənc müstəqil dövlətimizin mühüm tarixi uğurlara imza atmasında qardaş Türkiyə Cümhuriyyəti, strateji müttəfiqimiz olan Rusiya Federasiyası, Xəzərin Azərbaycan sektorundan çıxarılan karbohidrogen ehtiyatlarının Avropa bazarlarına çıxarılmasında ilk tərəfdaşımız olan Gürcüstan və Xəzərin gündoğan sahillərindəki türkdilli ölkələlə davam etdirilən dostluq və tərəfdaşlıq münasibətlərinin xüsusi rolu olmuşdur. Həmin ölkələrin hamısı ilə təmaslarımız intensivləşir. Hətta, münasibətlərdə gərginliyin yarandığı, tez-tez soyuyub isinmə ilə müşayiət olunan İran İslam Respublikası ilə əməkdaşlıqda da xoşməramlı addımlar atırıq.

… Təxminən, 25 ilin söhbətidir. Rayona getmişdim. Atam soruşdu ki, Sadiq necədir? (Ailəmizin ilkini nəzərdə tuturdu– İ.M.) Dedim yaxşıdır, öz dərslərini oxuması ilə yanaşı, ingilis dilini bilməsinə də çalışıram. Atam gülümsündü: – Təknədən əppəyin, lampadan nöyütün qurtaranda kimdən istəyirsən?

Məqsədini başa düşmədiyimə görə cavab verə bilmədim. Ona görə də rəhmətliyin özü cavab verdi: – Əlbəttə, qonşudan istəyirsən. Ona görə də uşağın əvvəlcə qonşularla ünsiyyət qurmasına nail ol, sonra ingilis dilini öyrədərsən. Məhz elə orada anladım ki, ulu öndər Heydər Əliyev nə üçün coğrafi baxımdan yaxın ölkələrlə dostluq və tərəfdaşlığın genişləndirilməsinə çalışır.

Dövlət başçımızın dost Gürcüstana bu səfəri də bir neçə cəhətdən əlamətdar oldu. Kütləvi informasiya vasitələri xəbər verirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Baş naziri İrakli Qaribaşvili oktyabrın 8-də Tbilisidə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş “The Architect of Prosperity” – “Firavanlığın memarı” adlı fotosərgi ilə tanış olublar. Qeyd olunub ki, Azərbaycanı müasir və iqtisadi cəhətdən çiçəklənən ölkəyə çevirən Ümummilli liderə ehtiramın ifadəsi olan bu sərgi Ulu öndərin bütün həyatını dövlətçiliyimizə və xalqımıza həsr etməsindən və ölkənin gələcək inkişafının əsasını necə müdrikliklə qoymasından bəhs edir.

Eləcə də, sərgidə Ulu öndərin Azərbaycan mədəniyyətinə qayğısını, gənclərlə görüşlərini əks etdirən fotolar yer alıb. Ekspozisiyanın Azərbaycan – Gürcüstan münasibətlərinə həsr edilmiş guşəsində Heydər Əliyevin Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadze, həmçinin Prezident İlham Əliyevin Baş nazir İrakli Qaribaşvili ilə görüşlərindən də fotoşəkillər nümayiş olunur.

Bundan başqa, Azərbaycan Prezidenti və Gürcüstan Baş naziri mətbuata bəyanatlarla çıxış ediblər. Dövlət başçımız öz bəyanatında vurğulayıb ki, Azərbaycan Gürcüstanın Qara dəniz sahilindəki Kulevi limanını genişləndirməyi nəzərdə tutur. Bu, əlbəttə ki, əməkdaşlığımızı daha da gücləndirəcək: “Təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun aşırma qabiliyyətinin 5 dəfədən çox artırılması və yaxın gələcəkdə fəaliyyətə başlaması, əlbəttə ki, Orta dəhlizin güclənməsinə xidmət göstərəcək”.

Xatırladaq ki, bu il aprelin 7-də Azərbaycanda səfərdə olan Gürcüstan Baş naziri İrakli Qaribaşvili Qəbələ şəhərindəki çıxışında qeyd etmişdi ki, Azərbaycanla, Azərbaycan xalqı ilə bu sıx dostluq və qardaşlıq münasibətləri olduqca önəmlidir: “Bizim dostluğumuzun çox qədim tarixi var və Azərbaycan təkcə qonşumuz və dostumuz deyil, bizim mühüm strateji tərəfdaşımızdır. Uzun illər ərzində biz müxtəlif sahələrdə tarixi layihələri həyata keçirmişik və o layihələr bizim xalqları, ölkələri daha da sıx birləşdirdi. Biz yaxşı mənada bir-birimizdən asılıyıq və əminəm ki, bundan sonrakı uzun illərdə də bu, belə olacaqdır. Biz dəfələrlə bu mühüm layihələri qeyd etmişik”.

Biz isə əlavə edirik ki, Gürcüstan Azərbaycan üçün etibarlı tranzit ölkəsi, tranzit tərəfdaşıdır. Dost ölkənin Baş naziri yazda Azərbaycanda olarkən demişdi ki, bizim əsas məqsədimiz regionda sülhü və sabitliyi təmin etməkdir. Regionda daha çox layihələr həyata keçirməliyik və biz işimizi qardaşlıq mühitində irəli aparacağıq. Fikrimizcə, onun sülh və sabitlik haqqında dediklərinin konkret ünvanları da var idi. Hətta Ermənistanın müxalifət mətbuatı bu səfərdən əvvəl yazırdı ki, Bakı ilə Tbilisi regiondakı vəziyyəti müzakirə edəcəklər, biz isə kiminləsə, hansısa müzakirəni apara bilmirik.

Sonda xatırladaq ki, Gürcüstan Baş naziri İrakli Qaribaşvilinin dəvəti əsasında Azərbayan Prezidenti İlham Əliyevin işgüzar səfəri çərçivəsində ikitərəfli münasibətlərin gündəliyində duran aktual məsələlər müzakirə edilib. Xüsusilə vurğulanmalı məqamlardan biri də dövlət başçımızın mətbuat üçün verdiyi bəyanatda Ermənistan–Azərbaycan münasibətlərinin normallaşdırılması barədə danışarkən səsləndirdiyi fikirlər idi: “Hesab edirəm ki, biz buna hazır olan ölkə kimi Ermənistandan da eyni yanaşmanı gözləməliyik. Əgər Ermənistan tərəfindən də razılıq olarsa, dərhal bizim aidiyyəti qurumların rəhbərləri Gürcüstanda həm ikitərəfli, həm də üçtərəfli görüşə gələ bilərlər”.

*İttifaq MİRZƏBƏYLİ*
*XQ*

KÖŞƏ

# Erməniləri rahat buraxın, müsyö Makron!

**Dünyanın az qala yarısının – demək olar ki, Qərb aləminin böyük əksəriyyətinin Ermənistanın tərəfində olmasına, Cənubi Qafqazın hələ uzun illər münaqişə zonası kimi qalmasını istəməsinə baxmayaraq, Azərbaycan öz gücünə güvənərək ərazi bütövlüyünü bərpa etdi, necə deyərlər, öz göbəyini özü kəsdi.**



**Paşa ƏMİRCANOV**
**pasha.emircanov@mail.ru**

İndi bu, həmin “köhnə dünya”da çoxunun, xüsusən də Fransa prezidenti Makronun xoşuna gəlmir. Əslində, Fransa münaqişənin bütün 30 ili ərzində Azərbaycana düşmən olub, torpaqlarımızın işğalını, erməni terrorçularının ərazilərimizi narkomaniya yuvasına və xarabazara çevirməsini dəstəkləyib. Bu gün Azərbaycan və qardaş Türkiyə ABŞ Dövlət Departamenti kimi illik hesabatlar hazırlayıb yaysalar, Fransanı terroru dəstəkləyən dövlət kimi təqdim etməkdə tam haqlıdırlar. Sadəcə, hələ ki, kollektiv Qərbə və Fransaya qarşı bunu reallaşdırmaq mümkün görünmür.

Amma Fransa bir sıra ölkələri və təşkilatları başına yığıb Azərbaycana təzyiq göstərmək istəyindən əl çəkmir. Bax, buna görə Azərbaycan Prezidenti İlham Əliyev bu günlərdə Gürcüstanda açıq bəyan etdi ki, əl çəkin, cənablar, qoyun Cənubi Qafqaz rahat nəfəs alsın!

Yox, əl çəkmək fikrində deyillər. Dünən artıq Birləşmiş Millətlər Təşkilatı özünün ikinci missiyasını Qarabağa göndərib. Birinci missiyanın hazırladığı hesabat bunları qane etməyib. Axı həmin sənəddə bildirilirdi ki, heç bir mülki erməniyə xətər yetirilməyib, Azərbaycanın hərbi qüvvələrinin insan haqlarını pozması ilə bağlı ərazini tərk edən erməni sakinlər tərəfindən də heç bir fakt irəli sürülməyib. Əksinə, ermənilər könüllü şəkildə getdiklərini bildiriblər.

Başa düşmək çətindir ki, bu hesabat ortada olduğu halda, ikinci missiyaya, yaxud Fransanın tələb etdiyi “beynəlxalq monitorinq”ə nə ehtiyac var? Niyə razılaşmaq istəmirlər ki, Qarabağ sakini olan ermənilər orda yaşamaq istəmirlər? Bu da səbəbsiz deyil. Son 30 ildən artıq müddətdə Qarabağ məhz Fransa kimi ölkələrin, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar kimi qurumların təhriki ilə separatizm yuvasına çevrilib. Məhz Fransa kimi ölkələrin təhriki ilə Ermənistan və onun himayəsi altında Qarabağ erməniləri uzun illər Cənubi Qafqazda sülh yaradılmasına imkan verməyiblər. Bu, azmış kimi, məhz Fransa kimi müsəlman düşməni olan ölkələrin təhriki ilə Azərbaycanın 20 faiz ərazisində yerli əhaliyə – azərbaycanlılara qarşı etnik təmizləmə aparılıb, minlərlə günahsız insan – uşaq, qadın, qoca əsir və girov götürülərək ermənilər tərəfindən insanlığa yaraşmayan əzablara, işgəncələrə, təhqirlərə məruz qalıb. Fransa kimi “insan haqları” haqqında boğazdan yuxarı moizələr oxuyan dövlətlər isə kənardan baxaraq müsəlmalara qarşı alçaldıcı hərəkətlərdən ləzzət alıblar.

Bax, bu gün saxlanılaraq Azərbaycanda istintaqa cəlb edilən V.Xaçatryan, Araik Arutyunyan, Bako Saakyan və digərləri məhz Fransa tərəfindən ələ alınıb icra etdikləri əmrlərin – qəddarlıqların, vəhşiliklərin bədəlini ödəyirlər. Amma onlar tək deyil. Qarabağda günahsız azərbaycanlılara divan tutmuş minlərlə belə cani var. Onlar adını qeyd etdiyimiz və etmədiyimiz komandirlərinin əmrlərinin icraçılarıdır. Azərbaycanlılara qarşı o qədər günah işlədiblər ki, indi, bax, bu günahlardan qaçırlar. Onları bu günahları törətməyə, hərbi cinayətlərin səbəbkarı olmağa Makron kimilər sövq ediblər. İndi əlimizə keçmiş bu canilər kimlərdən əmr aldıqlarını bircə-bircə istintaqa elan edirlər.

Bəs Fransa nə istəyir? Qranada görüşündə hələ də Azərbaycana “beynəlxalq monitorinq” göndərməkdən danışır. Axı bu “monitorinq”lər dünənki hərbi cinayətkarların yaşadıqları torpaqların sahibləri qarşısında günahlarını yuya biləcəkmi? Əlbəttə, yox. Makron özünü öldürsə də, Qarabağda cinayətlər törədənlər geri qayıdıb sabah qonşusu olacaq azərbaycanlıların üzlərinə baxa bilməyəcəklər. Onlar öz günahlarından qaçırlar.

Amma sənin də günahların az deyil, müsyö Makron! Ən azı Azərbaycanın iştirak etmədiyi Qranada görüşündə onun taleyini həll etmək cəhdinə görə məsuliyyət daşıyırsan. Ermənilərlə isə nə edirsən, et, özün bilərsən. Onları hansı formada istəyirsən, separatizmə və terrorizmə sürükləyə bilərsən. Çünki axırda “Dəmir yumruq” işə düşəndə zərər çəkən fransız deyil, erməni olacaq. Bu həqiqəti sən çoxdan bilirsən, ermənilər də bilsə, ağılları başlarına gələr. Bax, ermənilər bunu başa düşəndə Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə yalvaracaqlar ki, Azərbaycanla sülh yaradılmasına kömək etsin. Ona görə də tövbə edin, cənab Makron. Siz də, ermənilər də tövbə edin! Sülhə yol tövbədən keçir!..

# Qaluzinin “Meğri marşrutu” və Zəngəzur dəhlizi ideyası

## Rusiyanın Ermənistanı inandırması mümkündürmü?



**(əvvəli 1-ci səhifədə)**

Hələlik isə M.Qaluzin xatırladıb ki, bu il iyunun 2-də Azərbaycan, Rusiya və Ermənistan üçtərəfli işçi qrupunun sonuncu görüşü baş tutanda tərəflər nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması istiqamətində irəliləyişin olduğunu qeyd ediblər. Yaqin mövcud səbəbdəndir ki, nazir müavini Ermənistanla Azərbaycan arasında nəqliyyat kommunikasiyalarının açılacağına ümid bəslədiyini deyib. O, Azərbaycanın əsas ərazisini Naxçıvanla birləşdirəcək “Meğri marşrutu”nun yaradılması üzərində dayanıb. Bu məqamda müxbirin diplomatın Zəngəzur dəhlizini nəzərdə tutub-tutmadığına aydınlıq gətirmək üçün ünvanladığı dəqiqləşdirici sual maraq kəsb etməkdədir. Qaluzin deyib ki, onsuz da söhbət Ermənistan ərazisindən keçən dəmir yolundan gedir. Ona görə “Meğri marşrutu” ifadəsindən istifadəni məqbul sayır.

“Bəli, Azərbaycanda buna Zəngəzur dəhlizi deyirlər” şəklində cavab verən M.Qaluzin əlavə edib ki, bu formul hər kəsə uyğundur və Rusiya Azərbaycanın və Ermənistanın mövcud istiqamətdə razılıq əldə etməsinə kömək göstərir. Çünki “biz inanırıq ki, bu saziş Cənubi Qafqazda ümumi sabitləşmə üçün çox mühüm amil olacaq. Bu, bütün Zaqafqaziya dövlətlərinin iqtisadi inkişafına töhfə verəcək”.

Rusiya XİN başçısının müavini əlavə edib ki, “Meğri marşrutu”nun (Zəngəzur dəhlizinin – red.) reallaşması Ermənistanı nəqliyyat-logistika mərkəzinə çevirəcək, ona Azərbaycan, Türkiyə və Rusiya ilə nəqliyyat əlaqələrini gücləndirmək və genişləndirmək imkanı qazandıracaq. Azərbaycan ölkənin iki bölgəsi arasında fasiləsiz ritmik nəqliyyat rabitəsinə malik olacaq. Cənubi Qafqazda vəziyyətin ümumi sabitləşməsi isə Ermənistanla Azərbaycan arasında gələcək üçün etimadın əsaslarının möhkəmlənməsinə xidmət edəcək: “Beləliklə, biz üçtərəfli işçi qrupu çərçivəsində bu məsləhətləşmələri davam etdirməkdə israrlıyıq”.

Göründüyü kimi, M.Qaluzinin bildirdikləri Zəngəzur dəhlizinin Rusiya üçün də önəmini vurğulamaqdadır. Onun “Meğri marşrutu” ifadəsinə üstünlük verməsi isə anlaşılandır. Çox güman ki, diplomat Zəngəzur dəhlizi deyiminin Ermənistanda doğurduğu mənfi assosiasiyanı nəzərə alır və İrəvanı qıcıqlandırmaqdan uzaq durur ki, məsələyə soyuq başla yanaşma meydana çıxsın. Amma məlumdur ki, rəsmi İrəvanda bu yanaşma yoxdur. Ermənistan Azərbaycanın irəli sürdüyü, Türkiyənin və indi daha yaxşı göründüyü qədərilə Rusiyanın dəstəklədiyi layihənin reallaşmasına qarşı çıxır, məsələni ərazilərinin işğalı kontekstində dəyərləndirir. Hər halda, ölkənin hakim siyasi dairələrinin söylədiklərindən bu qənaət hasil olmaqdadır. Nəticədə iş o yerə çatır ki, Azərbaycanın digər bölgələrini Naxçıvanla birləşdirən yolun İran ərazisindən keçməsi planından söz açılır. Bu gedişat kimə sərf edəsə də, Rusiyanı qətiyyən qane etmir. Diqqət edək, nə üçün?

Fikrimizin təsdiqi üçün Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatının 9-cu bəndini xatırladaq: “Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirirlər. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək”.

Birincisi, bu bəyanatda Rusiya liderinin imzası var və demək olar ki, yerinə yetirilməsi ölkə üçün vacibdir. Həm də ona görə ki, imza Moskva qarşısında öhdəlik yaradır. Təbii ki, bəyanatda Ermənistan baş nazirinin də imzası yer alır. Yəni, onun da öhdəliyi var. Amma, bir qayda olaraq, Nikol Paşinyan öhdəliklərdən yayınmaq da, belə demək mümkünsə, püxtələşib. İkincisi, Ermənistanın Qarabağ avantürası tarixə qovuşduqdan sonra bölgədəki Rusiya sülhməramlılarının orada qalmaları mənasızlaşacaq. Yəni, onların ərazidə mövcudluqlarının heç bir anlamı olmayacaq. Belədə üçtərəfli Bəyanatdakı “nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirirlər” ifadəsi son dərəcə ciddi tutacaq yerdir. Yəni, Moskva Cənubi Qafqazda varlığını məhz mövcud kontekstdə sürdürə bilər. Həm də nəzərə alaq ki, sözügedən marşrut İranla sərhədin qorunması anlamı daşıyır ki, bu da Rusiya üçün son dərəcə mühüm məsələdir. Üçüncü bir məqam da aktualdır. İndiki durumda Rusiyanın özü də bu logistik əlaqənin qurulmasında maraqlıdır. Çünki Ukrayna müharibəsi səbəbindən ölkə beynəlxalq aləmdən təcrid durumdadır və Zəngəzur dəhlizi təcriddin ağır şərtlərini xeyli minimallaşdırmaq nöqteyi-nəzərindən vacibdir.

İndi isə gələk, Rusiyanın Ermənistanı inandırması metoduna. Onu deməliyik ki, Ermənistanın hazırkı anti-Rusiya ovqatının Zəngəzur dəhlizi məntiqinə qarşı çıxma göstəricisi də aktuallığını qorumaqdadır. Əlbəttə, nəzərə almalıyıq ki, Azərbaycanı Naxçıvanla birləşdirəcək quru yol İran ərazisindən keçsə, bundan Ermənistan heç nə udmayacaq. Ancaq İrəvan öz gəlirini düşünüb müstəqil qərar verməkpotensialından uzaqdır. Ölkə daha çox Qərbin “sifarişlərini” yerinə yetirməklə məşğuldur. “Sifariş” isə Rusiyanın Cənubi Qafqazdan sıxışdırılmasıdır. Bu səbəbdən Moskvanın İrəvanı hansı yolla Zəngəzur dəhlizinə, M.Qaluzinin təbirincə desək, “Meğri marşrutu”nun vacibliyinə inandırması maraqlıdır. Hər halda Rusiya XİN başçısının müavininin haqqında söz açdığı üçtərəfli işçi qrupu platformasının bunun üçün o qədər də təkmil müstəvi sayılmadığı ortadadır.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Heydər Əliyev Azərbaycan–Gürcüstan dostluğunu yeni epoxada əbədiləşdirdi



**Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədri İsak Novruzovla II söhbəti təqdim edirik**

**– İsak müəllim, ötən söhbətinizdə dediniz ki, Heydər Əliyev Qaratəpədəki komsomol şəhərciyində ağac əkəndə ona siz kömək etmisiniz. Həmin ağacın taleyi ilə sonralar maraqlandınızmı?**

– Təbii ki, Ulu öndərin özü kimi, əkdiyi o küknar da mənim üçün əziz və unudulmaz olub. Onun bitməsi, böyüməsi və qorunması həmişə diqqətimdə olub. Gürcüstan müstəqilliyini qazanandan sonra həmin ərazi təhlükəsizlik orqanlarının sərəncamına verildi. Ondan sonra bağa giriş yasaq edilsə də, mən səlahiyyət və nüfuzumdan istifadə edib vaxtaşırı Ulu öndərimizin öz əlləri ilə əkdiyi ağacı onun Borcalıdakı daim boy atan yadigarı kimi ziyarət edirəm.

**– Ümummilli lider Heydər Əliyev Gürcüstanda yaşayan soydaşlarımızın bir çoxunun şəxsi həyatında da silinməz izlər qoyub, istedadlı və bacarıqlı kadrların yüksəlişinə dəstək verib.**



– Heydər Əliyev dünyanın hər yerində azərbaycanlıların problemləri ilə maraqlanır, Gürcüstanda isə onların idarəçilikdə layiqincə təmsil olunmasını daim nəzarətdə saxlayırdı, milli-mədəni inkişafda bu amilə xüsusi diqqət yetirirdi. Elə buna görə də Ümummilli lider dünyada yaşayan bütün azərbaycanlıların prezidenti sayılırdı. Mənim şəxsi həyatımda isə Heydər Əliyevin rolu atalıq qayğısı qədər böyük və dəyərlidir. Sovet dönəmində bir təsadüfdən başlayan bu tanışlıq Gürcüstan parlamentinin üzvü olanda bir daha yeniləndi və mənim ictimai fəaliyyətim Heydər Əliyevin diqqət mərkəzində oldu.

1996-cı ilin yanvarında Gürcüstan parlamentinin nümayəndələri Bakıya gəlmişdi. Bakıda Prezident Sarayında Heydər Əliyev Gürcüstan parlamentinin o zamankı deputatları Ramiz Bəkirovu, Hidayət Hüseynovu və məni ayrıca qəbul etdi. Ulu öndər bir saatdan çox çəkən görüşdə hər birimizi diqqətlə dinlədi, soydaşlarımızın qayğı və problemləri ilə maraqlandı. Qürurverici sözləri indi də yadımdadır: “Siz Gürcüstanda yaşayan azərbaycanlılar, unutmayın ki, bu ölkə sizin vətəniniz, dövlətinizdir. Siz bu dövlətin qurulmasında, möhkəmlənməsində və inkişafında gürcü qardaşlarla çiyin-çiyinə çalışmalısınız. Sizin Gürcüstan parlamentinin deputatı seçilməyiniz məni çox sevindirir. Çalışın ki, Gürcüstanda yaşayan azərbaycanlılar öz zəka və bacarıqları ilə hamıdan öndə olsunlar”.

1999-cu ilə kimi – deputat olduğum illərdə münasibətlərimiz davam etdi və Heydər Əliyevlə görüşlərim taleyimin ən xoş səhifələri kimi yaddaşımdadır. Amma növbəti seçkilərdə mən bu şansdan məhrum oldum. Daha doğrusu, proporsional qaydada deputat seçilməyimə imkan verilmədi.

**– Bunun səbəbi nə idi?**

Təbii ki, səbəb bəlli idi və bu barədə dəfələrlə açıq şəkildə danışmışam. O dövrdə Aşağı Kartili bölgəsinin qubernatoru olan Levan Mamaladze buna imkan vermədi. Bu o Mamaledze idi ki, bölgədə azərbaycanlıların fəaliyyətini və fəallığını qəbul edə bilmirdi. O özünü zahirən azərbaycanlıların dostu kimi göstərir, əslində isə bacarıqlı soydaşlarımızı irəli buraxmırdı. Bizim özümüzünkülərdən də bəziləri onu azərbaycanlıların sadiq dostu kimi təqdim edirdilər.

O zaman Mamaladzenin azərbaycanlılara qarşı riyakar münasibətinə, onları gizli şəkildə sıxışdırmasına ciddi etirazımı bildirdim. Bundan sonra “hörmətli qubernator” mənim fəaliyyətimi qəbul etmədi, regionun və azərbaycanlıların problemlərinin həllində iştirakıma maneçilik törətdi. Bir sözlə, adamların məni yaxından tanımasını istəmədi və qisasını bu cür aldı, ikinci dəfə deputat seçilməyimə imkan vermədi.

**– Amma hakimiyyət strukturunda daha ciddi bir vəzifəyə irəli çəkilmisiniz – Gürcüstan energetika nazirinin müavini olmusunuz. Bu necə mümkün olmuşdu?**

– Mənim sıxışdırıldığım bir vaxtda yenidən irəli çəkilməyim məhz Ulu öndərin adı ilə bağlıdır. Levan Mamaladze Eduard Şevardnadzenin komandasında sözü keçən adam idi. Amma dahi siyasətçi olan Heydər Əliyevin diqqət və sayğısı mənə münasibətdə onun mövqeyinə üstün gəldi. Bu belə olmuşdu. 1999-cu ilin oktyabrında Heydər Əliyev Gürcüstanın Bakıda səfərdə olan dövlət naziri Vaja Lordukipanidzeni qəbul edəndə Ulu öndər soruşur ki, İsak Novruzov hardadır? O vaxtlar mənə kənd təsərrüfatı, təhsil və başqa nazirliklərin birində yüksək vəzifə veriləcəyi barədə müzakirələr gedirdi. Bu məsələlərin içərisində olan Lordukipanidze cavab verir ki, deputat seçilmədi, amma nazir müavini təyin ediləcək. Azərbaycan rəhbəri bildirir ki, Novruzov bacarıqlı kadrdır, iki xalqın dostluğunun möhkəmlənməsinə xidmət edir.

Onun bu siyasi dəstəyi mənə münasibəti istiləşdirdi. Bundan sonra təyinat məsələmin müzakirəsi bir az da sürətləndi və mənə olunan təkliflər sırasında Energetika Nazirliyində çalışmaq qərarını verdim. O dövrdə də enerji məsələsinin aktuallığı çox yüksək idi və Azərbaycanla əlaqələr sürətlə inkşaf edirdi. Belə bir mühüm vəzifəni seçməyimin obyektiv səbəblərindən biri də bu idi. Amma bu təyinat da daha 5 ay ləngidildi. Nəhayət, 2000-ci il martın 22-də Heydər Əliyev Gürcüstana rəsmi səfərə gəldi. Həm Azərbaycanın, həm də Gürcüstanın iqtisadi və siyasi həyatında çox əlamətdar hadisələrlə zəngin olan



bu səfər mənim üçün də önəmli oldu.

Yerli azərbaycanlılarla görüşən Ulu öndər bu dəfə Gürcüstanın prezidenti Şevardnadzedən ciddi bir tərzdə soruşur ki, İsak Novruzov haradadır? Hələ 6 ay əvvəl bu məsələdən məlumatlı olan Şevardnadze cavab verir ki, energetika nazirinin müavini təyin etmişik, indi daha operativ və vacib işlərlə məşğuldur. Amma, əslində, o vaxt mənim bu təyinatım təsdiq olunmamışdı. Heydər Əliyevin Gürcüstan səfəri başa çatandan sonra, daha dəqiq desək, 5 gün sonra Gürcüstan prezidenti mənimlə bağlı məsələyə, nəhayət, son verməli oldu – gözlənilən sərəncamı imzaladı.

Martın 28-də mən Gürcüstanın energetika nazirinin müavini təyin edildim. Göründüyü kimi, bu təyinat Ulu öndərin Gürcüstandakı soydaşlarımızın taleyi ilə bağlı narahatlığından irəli gələn siyasəti nəticəsində mümkün oldu. Heydər Əliyevin təkidli mövqeyi və mənə inamı karyera yolumu yenidən açdı və bədxahlara da layiqli dərs verdi. Təbii ki, gürcü dilini mükəmməl bilməyim və Gürcüstanın hakimiyyət dairələri tərəfindən ciddi qəbul olunmağım Heydər Əliyevin diqqətindən yayınmamışdı. İndi görün Heydər Əliyev ən adi məsələlərdə belə nə qədər diqqətli və uzaqgörən bir insan olub. Onun nəzərindən heç nə zərrə qədər yayınmayıb, xüsusən də azərbaycanlılara, o cümlədən Gürcüstan azərbaycanlılarına münasibətdə bu amil özünü dəfələrlə təsdiqləyib.

**– Ümumiyyətlə, Ulu öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra Gürcüstanda soydaşlarımıza münasibət sivil məcraya düşdü. Onların bu ölkənin köklü xalqı olması gerçəyi rəsmən qəbul edildi.**

– Elədir. Ulu öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra Borçalının taleyi xüsusi diqqətə alındı, hətta özü çətin durumda olan Azərbaycan bu müqəddəs işə səfərbər oldu. O vaxtlar Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı işləyən Aslan Aslanov məhz Heydər Əliyevin göstərişi ilə bu gərəkli missiyanın icrası ilə məşğul idi. Ulu öndərin Gürcüstan və gürcüstanlı azərbaycanlılarla bağlı tapşırıqlarının icrasında mən də birbaşa iştirakçı olmuşam.

Heydər Əliyev Azərbaycan – Gürcüstan əlaqələrinin möhkəmləndirilməsinə, daha da inkişafına, orada yaşayan soydaşlarımızın problemlərinin həllinə, Gürcüstan ərazisində yerləşən milli abidələrimizin, maddi-mənəvi dəyərlərimizin, bir sözlə, tarixi yaddaşın qorunub saxlanılmasına xüsusi önəm verirdi. 1993-cü ildən başlayan bu iş mütəmadi olaraq davam etdirilmiş, Gürcüstan azərbaycanlılarının bütün problemləri diqqətdə saxlanılmış və onların həlli gündəmə gətirilmişdir.

**– Yeri gəlmişkən, Gürcüstanın o dövrdəki gərgin siyasi vəziyyəti, xüsusən də azərbaycanlılara edilən təzyiqlər, onların kütləvi deportasiya edilməsinə açıq-gizli cəhdlər, yəqin ki, yaddan çıxmayıb. Belə bir vaxtda Heydər Əliyev bu yaramazlıqlara qətiyyətlə son qoydu.**

– Bəli, 1993-cü ildə Gürcüstanda ictimai-siyasi və iqtisadi vəziyyət son dərəcə gərgin idi, hadisələrin məcrası hər gün dəyişirdi. Soydaşlarımızın narahatlığına ciddi səbəblər var idi. Bu narahatlıqları və haqsızlıqları Heydər Əliyev kimi siyasətçi görə bilərdi və gördü də. Ulu öndər ilk gündən bu məkrli münasibətlərin aradan qaldırılmasını tələb etdi. Düşmən qüvvələr duruş gətirə bilməyib geri çəkildi. Azərbaycandan göndərilən nümayəndələrə tapşırıldı ki, Gürcüstanda yaşayan soydaşlarımızın problemləri dərindən öyrənilsin.

Azərbaycan xalqının tanınmış şəxsiyyətlərindən olan Nəriman Nərimanovun, Cəlil Məmmədquluzadənin Tbilisidəki ev-muzeylərinin himayəyə götürülməsi barədə xüsusi tapşırıq verdi. Hələ sovet dövründə tarixi şəxsiyyətlərimizin evlərinə müxtəlif yollarla sahib olmuş ermənilərdən həmin mülklər alınaraq özəlləşdirildi. Daha sonra onların yüksək səviyyədə əsaslı təmiri aparıldı. Eksponatlar əldə edildi və lazımi avadanlıqlar alındı, mənzillərin xarici



və daxili görünüşündəki tarixilik özünə qaytarıldı.

Bir sözlə, Heydər Əliyevin göstərişinə əsasən, Gürcüstanda həyata keçirilən belə işlər milli mənliyimizin bərpasına verilən töhfə idi və yeni quruculuq işləri ilə əhatə olunmuşdu. Hər bir addım, həyata keçirilən çoxsaylı tədbirlər milli mədəniyyətimizin inkişafına və tərəqqisinə xidmət edirdi.

**– Həmin dövrdə Azərbaycanda da vəziyyət çox gərgin idi. Tarixin elə keşməkeşli bir dövrü idi ki, Dağlıq Qarabağ və onun ətrafı sovet imperiyasının məkrli siyasəti sayəsində Ermənistan silahlı birləşmələri tərəfindən zəbt edilmişdi.**

– Bunlar hamısı düşmən dairələr tərəfindən idarə olunurdu və ermənilər bundan məharətlə istifadə edirdilər. Gürcüstanda da erməni daşnaklarının xalqımıza qarşı təzyiqi güclənməkdə idi. Hətta yerli ermənilərin və millətçi gürcülərin terrorundan qorxuya düşən soydaşlarımızın Gürcüstandan Azərbaycana axını başlanmışdı. Erməniəsilli gürcülər quldur və işğalçı ermənilərlə, gürcülərin Xüsusi Təyinatlı Polis Dəstəsinin başçısı Mixidironla əlbir olaraq azərbaycanlılara qarşı açıq təzyiq, təhqir, şantaj kampaniyasına başlamışdılar. Oğurluq, quldurluq faktları günü-gündən çoxalır, adamlar illərlə məskunlaşdıqları yurd-yuvalarından didərgin salınırdı.

Gürcüstanın azərbaycanlılar yaşayan sərhəd kəndlərində belə hadisələr ara vermədən intensivləşirdi. Məqsəd də aydın idi: azərbaycanlı ailələrini yurd-yuvalarından qovaraq həmin ərazilərə asanca sahib olsunlar. Bu təbii ki, Azərbaycan üşün də qorxulu idi, çünki Dağlıq Qarabağdan gələn məcburi köçkünlər probleminə Gürcüstandan qaçanların da əlavə olunması Azərbaycanda gərginliyi artırmaqla siyasi sabitliyi də pozmaq məqsədi güdürdü.

Bunun nə qədər böyük bir fəlakət olacağını o zaman yalnız Heydər Əliyev uzaqgörənliyi və müdrikliyi ilə qiymətləndirdi. Gürcüstanın o vaxtkı prezidenti Eduard Şevardnadze ilə olan dostluq münasibətlərindən məharətlə istifadə edən Ulu öndər bu fəlakətin qarşısını aldı. Ermənistan silahlı qüvvələri Gürcüstanda yaşayan erməni və erməni əsilli gürcülərlə əlaqəyə girərək qurduğu planlar iflasa uğradı və beləliklə, onların illərdən bəri hazırladıqları işğalçılıq əməlləri həyata keçmədi.

Gürcüstan azərbaycanlılarının pik həddinə çatan narahatlığı məhz Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində aradan qaldırıldı. Heydər Əliyev Azərbaycanın və Gürcüstanın dostluğunu müstəqillik epoxasında möhkəmləndirdi. Ən əsası, Borçalı torpağının Qərbi Azərbaycanın taleyini yaşamamasının qarşısını məhz ümummilli lider Heydər Əliyev aldı. Gürcüstan azərbaycanlıları bu xilaskarlığı heç zaman unutmayacaqlar.

**– Maraqlı söhbətə görə sağ olun. Gürcüstanda yaşayan soydaşlarımıza daha xoş günlər arzulayırıq.**

**Namiq ƏHMƏDOV**
**XQ**

**Bakı–Tbilisi–Bakı**

# Ermənistanın Azərbaycana "işğalçı" deməsi gülüş doğurur

## Dövlət öz ərazisini necə işğal edə bilər?



**(əvvəli 1-ci səhifədə)**

Bəli, indi T.Balayanın söylədikləri də cəfəngiyyatdan başqa bir şey deyil. Ancaq həm də ona görə üzərində dayanılmalı məsələdir ki, Ermənistanın xaricdən külli miqdarda silah-sursat, hərbi texnika aldığına dair məlumatlar təsdiqlənməkdədir. Fransanın Ermənistanı ciddi şəkildə silahlandırdığı da aşkardır. Bu gün Ermənistanın Aİ-dəki səfiri Azərbaycanı işğalçı kimi təqdim edirsə, məlumdur ki, həmin qurumda başlıca söz sahibi olan rəsmi Paris də eyni mövqedədir. Fransanın Xarici işlər naziri Ketrin Kolonna açıq şəkildə bildirib ki, ölkəsi Ermənistanın müdafiə qabiliyyətinin artırılması məqsədilə ona silah-sursat verəcək. Kimdən müdafiə üçün? Təbii ki, Azərbaycandan. Deməli, hücum obyekti kimi nəzərdən keçirilən ölkəmizdir.

T.Balayana gəldikdə isə onun isteriyası daha güclüdür. Diplomat "Brussel Signal"a müsahibəsində "münəccim fəhmi"ni işə salaraq onu da bildirib ki, Azərbaycanın Ermənistanı işğalı yaxın həftələrdə gerçəkləşəcək. Onun sözlərinə görə, "Qarabağın təslim olmasından sonra" növbə Ermənistanındır. Deməli, yaxın həftələrdə İrəvanın Bakıya qarşı təxribat reallaşdırması mümkündür. Hər halda Balayanın ancaq münəccim fəhmi ilə davrandığını düşünmürük. Bildiyi şeylər var və onlar üçün "zəmin" hazırlayır.

Balayanın məntiqini əsaslandırmaq üçün üzərində ilk növbədə dayanılmalı məqam onun "Qarabağın təslim olmasından sonra" deyimidir. Bu ifadə baş nazir N.Paşinyanın Qranadada imzaladığı sənədə oxşar bir şeyi tam şəkildə puça çıxarır. Təsəvvür edin, həmin sənəddə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edir. Yəni, Qarabağın da ölkəmizin suveren ərazisi olması ilə razılaşır. Amma Paşinyanın Aİ-dəki bir nömrəli şəxsinin məntiqindən elə anlaşılır ki, bu tanıma boş şeydir. Belə çıxır, Azərbaycanın konstitusion quruluşunun bərpası işğalçılıq imiş və Balayanın düşüncəsinə görə, guya, Ermənistan ərazisi işğalçılığın ikinci dalğası ilə üzləşəcəkmiş…

Bəli, "indi biz Ermənistanın qaçılmaz işğalı təhlükəsi altındayıq", -– deyən T.Balayan vurğulayır ki, Azərbaycanın beynəlxalq hüquqa hörmətlə bağlı vədləri boşdur. Sən demə, ayının min oyunu bir armudun başında imiş. Səfirin bildirdiyinə görə, əsas problem ondan ibarət idi ki, Azərbaycan rəhbərliyi hələ də öz ekspansionist planlarının konkret nəticələri ilə üzləşməmişdi. Bu nə deməkdir? O deməkdir ki, rəsmi İrəvan ölkəmizə qarşı beynəlxalq miqyasda sanksiyaların tətbiqinə çalışır, ancaq buna müvəffəq ola bilmir. Yeri gəlmişkən, Balayan "Reuters"ə müsahibəsində də oxşar məqamı qabartmışdı və Aİ-ni Azərbaycana sanksiya tətbiqinə çağırmışdı. Hətta, öz aləmində yol da göstərmiş və demişdi ki, qurum Azərbaycandan neft və qaz alışını məhdudlaşdırmalı, Bakı ilə əməkdaşlıq istiqamətlərinə yenidən baxmalıdır.

Ancaq məlumdur ki, Fransa prezidenti Emmanuel Makron Qranadada Avropa Siyasi Birliyinin üçüncü Zirvə toplantısı çərçivəsində keçirdiyi mətbuat konfransında dedi ki, Azərbaycana qarşı sanksiyalar səmərə verməyəcək. Bu, bir tərəfdən onu göstərdi ki, Paris belə bir addımı atmağın ziyanlı tərəflərini görür, digər yandan isə sanksiya məsələsini özünün ermənipərəst siyasətinə daxil etmir. Deməli, onun üçün əsas olan Ermənistanı Azərbaycana qarşı silahlandırmaq və müharibəyə təhrik etməkdir. Əlbəttə, demək olmaz ki, Balayan və digərləri bunun nə dərəcədə təhlükəli olduğunu anlamış durumdadırlar. Çox güman anlasaydılar, belə yaramaz tona üstünlük verməzdilər.

***

T.Balayan, deyəsən, ya özü gicdir, ya da qarşısındakıları gic yerinə qoyur. "Brussel Signal"a müsahibəsində yenidən sanksiya məntiqi üzərinə gələn səfir son dərəcə absurd fikrə baş vurur. Bildirir ki, Aİ Azərbaycana ordusunu Ermənistanın sərhədyanı regionundan çıxarmaq üçün vaxt verməli və buna əməl edilməyəcəyi təqdirdə, qurum Bakı ilə vizasız rejim sazişini dayandırmalıdır. Onun fikrincə, Azərbaycana qarşı fərdi sanksiyalarla da aydın mesaj verilə bilər. Sual olunur: Ölkəmizin öz ərazisində, öz sərhədləri daxilində nə qədər ordu cəmləşdirməsinin Aİ-yə nə aidiyyatı var? Diplomat olan şəxs belə cəfəng məsələni gündəmə gətirirsə, bu cür məsuliyyətsiz fikir səsləndirirsə, Ermənistan dövləti və dövlətçiliyi, doğrudan da, ciddi beyin qanaması keçirməkdədir. Nəzərə alaq ki, Balayan tipik erməni məntiqi ilə danışır. Deməli, Azərbaycan qoşununu çəkəcək, Ermənistan da hücum edib əraziləri ələ keçirəcək, eləmi?! Başqa cür düşünməyə əsas yoxdur. Çünki 1992-ci ildə eyni "ssenari" gerçəkləşmişdi. İndi də şərti sərhədin Ermənistan tərəfində çox sayda hərbi birləşmələr var. Azacıq zəiflik bəs edir ki, onlar hücuma keçsinlər.

Başqa məqama da diqqət yetirək. Məlum olduğu kimi, Ermənistan rəhbərliyi, eləcə də, bir sıra ermənipərəst dairələr Qarabağda etnik təmizləmə məntiqini irəli sürürlər. Mövcud xüsusda 100 mindən çox erməni sakinin bölgədən köçünü qabardırlar. Bu, Ermənistanın anti-Azərbaycan xəttində başlıca məqamlardan biri olaraq meydana çıxır. Hər halda, Azərbaycan həmin erməni sakinlərə vətəndaşlıq təklif etmişdi. Eyni zamanda, onların hüquq və təhlükəsizliyinə təminat da vermişdi. O zaman sual yaranır: Köç dalğası nə üçün idi?

Məlum olduğu kimi, Azərbaycanın Qarabağda lokal xarakterli antiterror tədbirlərinədək Ermənistan hakimiyyəti imzalanacaq sülh müqaviləsinə Qarabağ erməniləri ilə bağlı ayrıca müddəanın salınmasını təklif etdirdi. Onu da bildirirdi ki, onların hüquq və təhlükəsizliyi üçün beynəlxalq təminat nəzərdə tutulmalıdır. Lakin Azərbaycan bununla razılaşmadı və yekunda məlum antiterror tədbirlərini gerçəkləşdirərək suverenliyini təmin etdi. İndi belə görünür, Qarabağdan gedən köç dalğası bölgə ermənilərini ayrıca təbəqə kimi göstərməyə hesablanıb. Bu, həm Ermənistana maliyyə axınını şərtləndirir, həm də ölkənin anti-Azərbaycan siyasətinə yeni motiv qazandırır. Artıq erməni siyasi kluarlarında Qarabağ ermənilərinin bölgəyə BMT-nin egidası altında qayıtmağa razılıqları ilə bağlı düşüncələr dolaşmaqdadır. Demək, antiterror tədbirlərinədək rəhbər tutulan Qarabağın erməni sakinlərinin hüquq və təhlükəsizliyi ilə bağlı beynəlxalq təminat məsələsi yenə aktuallığını saxlamaqdadır.

Bu yerdə Qarabağdan gedənlərin tərkibinə diqqət yetirmək zərurəti meydana çıxır. Əlbəttə, 120 min say şişirdilmiş rəqəmdir. Bölgənin yerli əhalisi o qədər deyil. Ermənistan isə həm işğal müddətində əraziyə köçürülmüşləri, həm oradakı kiçik kaliberli separatçı dəstə üzvlərini, həm də yerləşdirdiyi silahlı qüvvələrin şəxsi heyətini hesaba daxil edir. Belə çıxır, BMT egidası altında da yenidən separatçıları bölgəyə qaytarmaq kimi mənfur planın dövriyyəyə girməsinə ümid bəslənilir. Mövcud mənzərədə isə Fransadan və digər ölkələrdən alınmış silahlarla Azərbaycana hücum, bir növ, tamamlayıcı faktor rolunda çıxış etməkdədir. Nəzərə alaq ki, artıq indidən keçmiş separatçı rejim təşkilatlanmağa başlayıb. Rejimin özünü buraxdığını elan edən sabiq rəhbəri Samvel Şahramanyan İrəvanda "mübarizələrinin" davamlı olacağının anonsunu verib. Əslində, T.Balayanın və digərlərinin məntiqi də buna hesablanıb. Yəni, bir daha deyək ki, Ermənistan rəhbərliyinin Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı imzaladığı sənədlər lakmus kağızı kimi bir şeydir…

Nəzərə alaq ki, BMT-nin və digər beynəlxalq müşahidəçilərin, yaxud sülhməramlıların bölgədə yerləşdirilməsi oranın erməni varlığı üçün əlavə imtiyaz qazandıran faktordur. Elə bir imtiyaz ki, yekunda Azərbaycana qarşı ərazi iddiası üçün əsas yaradır. Bəli, indiki durumda beynəlxalq müşahidəçilər Qarabağın erməni əhalisinin Azərbaycanın yurisdiksiyasını şübhələndirmək alətindən başqa bir şey deyil. Belə bir niyyət olmasaydı, bölgədə qalar, oranı tərk etməzdilər.

***

Nəhayət, T.Balayanının anti-Azərbaycan ritorikasındakı və Azərbaycanın Ermənistan ərazisinə hücum məntiqindəki sonuncu məqamın üzərində dayanaq. Bu məqam Zəngəzur dəhlizi ilə bağlıdır. Bəli, həmin dəhlizin ölkəmiz üçün önəmini yenidən sübuta yetirməyə ehtiyac yoxdur və önəm saxlanılmaqdadır. Birincisi, Azərbaycanın digər rayonlarını Naxçıvanla birləşdirən quru yolu olmalıdır, digər tərəfdən isə ölkəmizin qardaş Türkiyə ilə, deməli, həm də dünya ilə əlaqəsində yeni dönəmin başlanması, eyni zamanda, geosiyasi şərtdir.

Bu günlərdə aparılmış danışıqlar göstərir ki, dəhliz İran ərazisindən də keçə bilər. Bu isə o deməkdir ki, Ermənistan müstəsna önəm daşıyan beynəlxalq layihədən kənarda qalacaqdır. Məsələnin başqa bir tərəfi isə odur ki, Zəngəzur dəhlizi məntiqi Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatından sonra siyasi leksikona daxil olub. Sənəddə bu, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yol kimi göstərilirdi və daha çox Laçın dəhlizi məntiqinə alternativ idi.

Ancaq ötən müddətdə gördük ki, Laçın dəhlizi məntiqinə köklənmiş Ermənistan nəinki Naxçıvana gedən yol ilə bağlı üzərinə götürdüyü öhdəliklərə əməl etmir, eyni zamanda, Laçın dəhlizi məntiqini Qarabağdakı separatçılığın qorunması, Azərbaycana qarşı ərazi iddiası kontekstində görür. Bölgəyə silah-sursat, hərbi texnika, partlayıcı maddələrin daşınması bunun təsdiqidir. Belə olan təqdirdə Azərbaycan Laçın dəhlizi məntiqini sarsıtmalı idi və sarsıtdı da. Artıq belə bir şey yoxdur. Laçın yolunda Azərbaycanın qurduğu sərhəd-buraxılış məntəqəsi var. Naxçıvana yola gəldikdə isə yuxarıda da vurğuladığımız kimi, İran ərazisi var və daha təhlükəsizdir. Bir halda ki, Ermənistan Zəngəzur dəhlizi məntiqində Azərbaycanın, Ermənistanın iştirakı olmayan, təhlükəsizlik meyarları ilə razılaşmırsa, deməli, fərqli yol seçilməlidir. Axı, anti-Azərbaycan mövqeli, səmimiyyətdən uzaq İrəvanın təhlükəsizlik zəmanəti ölkəmiz üçün qəbuledilməzdir. Ortada vaxtilə Naxçıvana gedən qatarların erməni millətçiləri tərəfindən daşa basıldığını görən nəsil var…

Ermənistan Zəngəzur dəhlizindən boyun qaçırırsa, həm də üçtərəfli Bəyanatla üzərinə düşən öhdəlikləri yerinə yetirmək istəmirsə, deməli, onun təcridi davam edəcəkdir. T.Balayan isə həmin dəhlizlə əlaqədar məsələyə də köklənərək deyir ki, Azərbaycanın Ermənistanın beynəlxalq səviyyədə tanınmış ərazisi ilə bağlı planlarının olmadığı barədə bəyanatı blefdir. Çünki Azərbaycan rəhbərliyi deyib ki, "erməniləri it qovan kimi qovacağıq". Həm də Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla keçirdiyi görüşdə Zəngəzurun "tarixi Azərbaycan torpağı" olduğunu vurğulaması var. Hər halda, T.Balayan bu kimi məqamları işğalçılıq əlamətləri saydığını deyərək çərənləyir.

***

Göründüyü kimi, T.Balayan, ümumən, Ermənistan diplomatiyası var gücü ilə Azərbaycanla bağlı mənfi rəy yaratmaq yolu tutmaqdadır. Yazımızda bunun nəyə hesablandığını diqqətə çatdırmağa çalışdıq. Əlbəttə, mövcud anlamda T.Balayanın daha "fantaziyalı" olduğunu söyləyə bilərik. Deyirlər ki, məqsəd vasitəyə bəraət qazandırır, Çox güman, İrəvanın Aİ-dəki səfiri də bu düşüncədədir və hədyanlarını sıralamaqda davam edir. Ancaq nəinki T.Balayanın, eləcə də digər erməni rəsmilərin unutduqları bir məqam var. O məqam da ondan ibarətdir ki, Azərbaycan öz məqsədinə doğru balayanların və başqa yanların oxuya, proqnozlaşdıra, ehtimal edə biləcəkləri tərzdə irəliləmir. Əslində, müəyyən mənada, bunu onların özləri də dərk edirlər. Sadəcə çaş-baş durumda qaldıqlarından, ağızlarına gələni danışırlar. Necə deyərlər, tutar qatıq, tutmaz ayran.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Anklavlarsız sülh mümkün deyil

## İşğal altındakı 8 kəndimiz də azad olunmasını gözləyir

***Ermənistanla Azərbaycan arasında həllini gözləyən məsələlərdən biri də anklavlar məsələsidir. Üç il öncə – 2020-ci ilin payızında Vətən müharibəsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü, cari ilin sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri sayəsində isə bütün ölkə üzrə suverenliyini bərpa edib.***

Hazırda Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanması üçün danışıqlar aparılır. Hələ 2022-ci ilin əvvəlində Azərbaycanın iki dövlət arasında münasibətlərin yaradılması üçün baza prinsiplərinə dair təklifi vasitəçilər tərəfindən Ermənistana təqdim edilib. Burada iki dövlət arasında münasibətlərin normallaşması üçün beş baza prinsipi əks olunub. Bu prinsiplərdən ikisi bilavasitə ərazi bütövlüyünün tanınması ilə bağlıdır. Bunlar dövlətlərin bir-birinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması, digəri isə dövlətlərin bir-birinə qarşı ərazi iddialarının olmadığının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsidir. Buna baxmayaraq, Ermənistan son vaxtlar öz ərazisindəki Azərbaycan anklavları barədə müzakirələri arxa plana keçirmiş kimi görünür.

Qeyd edək ki, anklav beynəlxalq hüquqda bir dövlətə məxsus, amma hər tərəfdən digər dövlətin ərazisi ilə əhatə olunmuş yerə deyilir. Sovet İttifaqının mövcud olduğu dövrdə Azərbaycanın Ermənistanda 8 kənddən ibarət anklavları olub. Bunlar Qazax rayonunun Bağanis Ayrım, Xeyrimli, Barxudarlı, Sofulu, Yuxarı Əskipara, Aşağı Əskipara, Qızıl Hacılı və həmçinin Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Kərki kəndləridir. Bir müddət əvvəl Ermənistan mediasında əvvəllər Azərbaycan kəndlərinin olduğu yerdə indi heç kimin yaşamadığı, heç bir tikilinin salamat qalmadığı barədə məlumat yayılmışdı. Bu məlumat bizim üçün təəccüblü olmadı. Çünki haylar işğal dövründə Azərbaycanın digər şəhər və rayonlarında da evləri yağmalayıb, onları tikinti materialı kimi ya özlərinin, ya da qonşu ölkələrin tikinti bazarlarında satıblar. Amma hazırda əsas məsələ anklavların qaytarılmasıdır. Ermənilər Qarabağ və Şərqi Zəngəzurda da daşı daş üstdə qoymamışdılar. Amma işğalın başa çatmasından dərhal sonra ölkəmiz viran edilmiş yurd yerlərini yenidən dirçəltməyə başladı. Nəticə göz önündədir. Bu gün Qarabağ və Şərqi Zəngəzur abad, inkişaf edən diyara çevrilib, burada yaradılan "ağıllı kəndlər" dünyanın diqqətini cəlb edir. Bu mənada vaxtilə işğal edilmiş ərazilərimizlə eyni aqibəti yaşayan anklavların da geri qaytarılmasından sonra dirçəliş dövrü yaşayacağı şübhə doğurmur.



Onu da bildirək ki, Ermənistanın Azərbaycan ərazisində yalnız bir anklavı olub. Hayların Artsvaşen adlandırdıqları və inzibati-ərazi bölgüsü baxımdan Gexarkunik vilayətinə (əsl adı Göyçə mahalı) daxil olduğunu iddia etdikləri bu kənd Gədəbəy rayonunun inzibati-ərazi vahidindəki Başkənd kəndidir. Kənd 1992-ci il 6-8 avqust tarixlərində həyata keçirilən "Başkənd əməliyyatı" nəticəsində Azərbaycanın nəzarəti altına keçib.

Ermənistan bu mövzunu hər nə qədər arxa plana keçirməyə çalışsa da, Azərbaycan üçün anklavlar məsələsi hər zaman aktual olub. Sonuncu dəfə oktyabrın 7-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Prezident İlham Əliyevə etdiyi zəng zamanı dövlət başçımız anklavlar barədə danışıb. Prezident İlham Əliyev Azərbaycanın 8 kəndinin hələ də Ermənistanın işğalı altında olduğunu deyərək, bu kəndlərin işğaldan azad olunmasının vacibliyini vurğulayıb.

***

Qeyd edək ki, Ermənistan baş naziri Nikol Paşinyan bu il mayın 22-də keçirdiyi geniş mətbuat konfransında (Paşinyan həmin mətbuat konfransında Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazisinə Qarabağın da daxil olduğunu ilk dəfə etiraf etmişdi–S.H.) bildirmişdi ki, anklavlar Azərbaycanın ərazi bütövlüyünün bir hissəsidir. "29,8 min kvadratkilometrlik Ermənistanın ərazi bütövlüyünə isə Artsvaşen daxildir. Anklavlar məsələsinin həlli üçün bir neçə variant var. Onlardan biri bu ola bilər: xəttin hər iki tərəfindəki anklav ərazilər yerləşdikləri tərəfin nəzarəti altında qalır. Digər variant isə odur ki, sülh müqaviləsi imzalandıqdan sonra Artsvaşen Ermənistanın, qalan ərazilər isə Azərbaycanın suverenliyi altına qayıdacaq. Bu, siyasi nöqteyi-nəzərdən olan mövqedir, lakin hüquqi aspekt hələ də öyrənilməlidir", – deyə Paşinyan bildirmişdi.

Həmin vaxt Paşinyanın bu mövqeyi ermənilər arasında böyük etirazla qarşılanmışdı. 1998–2008-ci illərdə ölkənin xarici işlər naziri olmuş Vardan Oskanyan "Mediamaks" saytı üçün məqaləsində yazırdı: "Nikol Paşinyanın mətbuat konfransında, nəhayət, aydın oldu ki, o, Qarabağı Azərbaycana verir (?). O da bəlli oldu ki, "anklavlar" adı altında əlavə əraziləri də verir ki, bu da iki dost ölkə – İran və Gürcüstanla strateji kommunikasiyalarımıza mütləq ziyan vuracaq. Təbii olaraq ciddi təhlükəsizlik problemləri yaradacaq. Şübhə etmirəm ki, tezliklə biz Azərbaycana "qeyri-dəhliz məntiqi" ilə dəhliz veriləcəyini də eşidəcəyik".

Revanşist kəsimin nümayəndəsi olan V.Oskanyan iki gün öncə yenə anklavlardan bəhs edib. "Facebook"da yaydığı videomüraciətində sabiq nazir bildirib ki, N.Paşinyanın səhvləri davam edir, son nümunə onun Qranadada imzaladığı bəyanatdır: "Bu bəyanatın mahiyyəti nədir? Qarabağ məsələsi, ümumiyyətlə, gündəmdə deyil. Söhbət Ermənistan Respublikasının ərazi bütövlüyündən gedir. Siz isə bizim Qarabağ məsələsindən qurtulmaqla Ermənistanın ərazi bütövlüyünə nail olduğumuzu bildirirsiniz. Bunu qəhrəmanlıq kimi təqdim edirsiniz, sanki siz nəsə etmisiniz, uğur qazanmısınız, dünya ərazi bütövlüyümüzü tanıyır. Siz ciddisinizmi? Paşinyanın dediyi ərazi bütövlüyü bizim üçün qeyri-müəyyəndir, orada qeyd olunan rəqəmlər (29,8 min kvadratkilometri nəzərdə tutur – S.H.) bu gün xalqımız üçün heç bir əhəmiyyət kəsb etmir. Ən azından bu vəziyyətdə Paşinyan xalqın qarşısında dayanmalı, xalqın gözünə baxmalı və həqiqətən deməlidir ki, bu rəqəmlərə nə daxildir. Biz başa düşürük, Qarabağı siz verdiniz, Qarabağ Azərbaycanın ərazi bütövlüyünə daxildir. Bəs bu saya qondarma anklavlar da daxildirmi? Sizin ətrafınızdakılar deyir ki, belə bir şey yoxdur, amma siz mətbuat konfransınızda dediniz ki, anklavlar da bu rəqəmə daxildir, anklavları da verirsiniz. Həqiqətən də onları verirsiniz? Siz ərazi bütövlüyünü belə başa düşürsünüz ki, Ermənistan Respublikası vətəndaşı İrana və ya Gürcüstana getməzdən əvvəl Azərbaycandan keçməlidir? Bu, bizim ərazi bütövlüyümüz olacaqmı?"

Oskanyan qeyd edib ki, Qarabağı təslim edən (?) Paşinyan anklavları da təslim edirsə (?), deməli, onun bir dəqiqə belə vəzifəsində qalmağa haqqı yoxdur.

***

Onu da bildirək ki, Paşinyan bundan əvvəl də dəfələrlə xəttin hər iki tərəfindəki anklav ərazilərin yerləşdikləri tərəfin nəzarəti altında qala biləcəyini bildirmişdi. Amma onun ortaya qoyduğu mövqenin qəbul olunacağı inandırıcı deyil. Məsələ ondadır ki, Azərbaycandakı Ermənistan anklavının, yəni, Başkəndin ərazisi cəmi 40 kvadratkilometrdir. Ermənistandakı Azərbaycan anklavlarının, yəni faktiki işğal olunmuş 8 kəndin ümumi ərazisi isə 120 kvadratkilometrdən çoxdur. Belə ki, Yuxarı Əskipara kəndi 8,6, Aşağı Əskipara 9,1, Bağanis Ayrım 40, Bərxudarlı 10,1, Sofulu 22, Qızıl Hacılı 11, Xeyrimli 4,1, Kərki kəndi isə 19,2 kvadratkilometr əraziyə malikdir. Ümumilikdə, Qazax rayonunun 7 kəndinin və Naxçıvan MR-in bir kəndinin ümumi sahəsi 124,1 kvadratkilometrdir ki, bu da Başkənd yaşayış məntəqəsinin ərazisindən üç dəfə böyükdür. Bu baxımdan Paşinyanın yanaşması qüsurludur və həyata keçirilməsi problemlidir.

Anklav ərazilərlə bağlı məsələni Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu ilin martında "Report"a müsahibəsində də qaldırmışdı. "Qazax rayonunun 7, Naxçıvanın isə 1 kəndi hələ də işğal altındadır. Laçın yolundan hərbi məqsədlər, o cümlədən silah-sursatın, minaların daşınması, şəxsi heyətin rotasiyası üçün istifadə olunurdu. Ermənistan 10 noyabr bəyanatına zidd olaraq, Zəngəzur dəhlizi ilə bağlı öhdəliklərini də yerinə yetirmir. Azərbaycanın qərb rayonlarından Naxçıvana bu günə qədər bir maşın belə keçməyib", – deyə H.Hacıyev qeyd etmişdi.

Bütün hallarda Ermənistandakı Azərbaycan anklavlarının qaytarılması günün tələbidir. İki ölkə arasında, bütövlükdə bölgədə davamlı sülhün əldə olunmasının yolu işğal altındakı 8 kəndin geri qaytarılmasından keçir. Anklavlar olmadan sülh müqaviləsinin imzalanması qeyri-mümkündür. Bu, birmənalıdır.

**Səxavət HƏMİD**
**XQ**

### Ekspert rəyi



**Tofiq ZÜLFÜQAROV, politoloq**

– Ermənistanla Azərbaycan arasında delimitasiya və demarkasiya prosesinin birdəfəlik yekunlaşması üçün anklav və eksklavların qaytarılması zəruridir. Qazax rayonunun yeddi və Sədərək rayonunun bir kəndi proses çərçivəsində Azərbaycana qaytarılmalıdır. Sərhəd komissiyasının ilk birgə iclasında bu məsələ gündəmə gəlməsə də ümid edirəm ki, sonrakı görüşlərdə müzakirə predmeti olacaq. Azərbaycanın anklavlardan imtina etməsi heç bir halda mümkün deyil.

Ermənistanın anklav və eksklav tələbinin doğru olduğunu da düşünmürəm. Ümumiyyətlə, delimitasiya və demarkasiya prosesi hazırda tərəflər arasında həllini gözləyən əsas problemlərdəndir. Digər vacib məsələ delimitasiya prosesində hansı xəritələrin əsas götürülməsidir. Azərbaycan tərəfi açıq şəkildə bildirib ki, Ermənistan iddialarından əl çəkməlidir. Əks-təqdirdə Azərbaycan da Zəngəzura iddia edə, delimitasiya prosesinin 1918-ci ilin xəritəsi əsasında aparılmasını istəyə bilər. Hesab edirəm ki, indiki məqamda əsas məsələ budur.

# Azərbaycan qazı tezliklə Macarıstanda da alovlanacaq

## Dost ölkəyə ildə 100 milyon kubmetr “mavi yanacaq” nəql ediləcək

**Macarıstanın Baş naziri Viktor Orban bu günlərdə mediaya müsahibəsində ölkəsinin enerji asılılığının aradan qaldırılmasında Azərbaycanı həlledici rol oynayan dövlət kimi dəyərləndirib. Baş nazir, eyni zamanda, Azərbaycan olmadan enerji müstəqilliyini reallaşdırmağın mümkünsüzlüyünü vurğulayıb. V.Orban daha sonra isə Macarıstanın qaz tədarükü ilə bağlı Bakı ilə müqavilə imzalamasını, Cənub Qaz Dəhlizinin (CQD) ölkəsi üçün mühüm əhəmiyyət daşımasını, bunun prioritet məsələ kimi diqqət çəkməsini xatırladıb.**



Qeyd edək ki, bir müddət bundan əvvəl sözügedən ölkənin “MVM CEEnergy Zrt.” şirkəti və SOCAR arasında qaz tədarükü barədə imzalanan sazişdə cari ilin sonunadək respublikamızdan Macarıstana “mavi yanacağ”ın nəqlinə başlanılacağı bildirilib. Sözügedən sənəd imzalanandan sonra bu ölkənin rəsmiləri tərəfindən Macarıstanın Rumıniya, Bolqarıstan, Türkiyə, Serbiya, Yunanıstan və Slovakiya ilə birgə regionun enerji infrastrukturunun modernləşdirilməsinə başlanılacağını, eyni zamanda, alternativ enerji mənbələrinə asanlıqla çıxış əldə ediləcəyi diqqətə çatdırılıb.

Bu məqamda xatırladaq ki, Azərbaycanın CQD ilə Avropaya təbii qaz tədarükü 2020-ci il dekabrın 31-dən reallaşıb. Trans–Adriatik Boru Kəmərinin (TAP) ilkin buraxılış gücünün 20 milyard kubmetrədək genişləndirmə potensialı isə ildə 10 milyard kubmetr təşkil edəcəyi müəyyənləşib.

“Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq sazişi, “Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında əməkdaşlığa dair Anlaşma Memorandumu”, nəhayət, “SOCAR” ilə “MVM CEEnergy Zrt.” arasında 100 milyon kubmetr həcmində təbii qazın satışına dair müqavilə” respublikamızın Macarıstanın enerji təhlükəsizliyinə prioritet istiqamət kimi yanaşdığından xəbər verir.

Onu da deyək ki, Macarıstana qaz təchizatının ilin sonuna kimi reallaşdırılması məqsədilə indiyədək nəzərdə tutulan infrastrukturun qurulması, Xəzər dənizində istehsalı gerçəkləşdirilən “yaşıl enerji”nin ötürülməsi üçün müxtəlif xətlərin, həmçinin Qara dənizin dibi ilə kabeli çəkməklə bazarlara çatdırılmasını əhatə edən layihənin texniki iqtisadi əsaslandırması ilə bağlı zəruri tədbirlər həyata keçirilib. Burada Macarıstanın respublikamızla birgə “yaşıl dəhliz” layihəsini maliyyələşdirməyə maraq göstərməsi isə diqqətçəkən məqam olub.

Beləliklə, iki ölkə arasında əlaqələr hazırda digər sahələrdə olduğu kimi, təbii qazın ötürülməsi sahəsində də özünü yüksək səviyyədə doğruldur və bu zaman Azərbaycanın “yaşıl enerji”nin əldə olunması layihəsinə də mühüm önəm verilir. Respublikamızın belə bir öhdəliyi üzərinə götürməsi – Cənubi Qafqazdan “yaşıl enerji”nin Gürcüstan və Rumıniya vasitəsilə Macarıstana ötürülməsi dost ölkə tərəfindən enerji təchizatının şaxələndirilməsi, tədarükün təmin edilməsi baxımından yüksək qiymətləndirilir.

Yeri gəlmişkən, iki ölkə arasında münasibətlər təkcə Azərbaycanın qaz tədarükü və “yaşıl enerji” potensialının hərəkətə gətirilərək nəzərdə tutulan əraziyə ötürülməsi ilə məhdudlaşmır. Respublikamızla Macarıstanın sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, ticarət və s. sahələrdə də əlaqələrin genişləndirilməsi üçün əlverişli şərait var və hazırda bu ehtiyatın böyük həcmdə reallaşdırılması üçün zəruri tədbirlər görülür. Bu isə Azərbaycan–Macarıstan əlaqələrinin getdikcə dərinləşməsinə, iqtisadi sahədə yüksək nəticələrin əldə edilməsinə əlverişli şərait yaradır. Bu gün ölkəmizdə Macarıstanın 20-dən çox şirkətinin səmərəli fəaliyyət göstərməsi, indiyədək respublikamıza 1,1 milyard dollar, Azərbaycandan isə qarşı tərəfə 18,1 milyon dollar məbləğində investisiya yatırması bunun əyani ifadəsidir.

Ticarət sahəsində də bu mənzərə aydın nənzərə çarpır. Belə ki, 2021-ci ildə iki ölkə arasında ümumi ticarət dövriyyəsi 35,16 milyon dollar təşkil edib. Ötən il bu göstərici 47,4 milyon dollar səviyyəsinə yüksəlib. Bu ilin keçən aylarında isə əmtəə dövriyyəsi 2021-ci illə müqayisədə 34,81 faiz artıb.

Macarıstan şirkətləri tərəfindən bu gün işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa-quruculuq işləri diqqətlə izlənilir, bununla əlaqədar respublikamıza müəyyən layihələr təqdim edilir. Düşməndən təmizlənən ərazilərimizdə minatəmizləmə əməliyyatına sözügedən ölkənin 25 min avro ianə etməsi də bunun bariz ifadəsidir.

Macarıstanın Azərbaycana yatırdığı investisiyanın respublikamızın bu ölkəyə qoyduğu sərmayədən 55 dəfə çox olması (1,1 milyard dollar və 18 milyon dollar), Ələt Azad İqtisadi Zonası ilə Macarıstan İxracın Təşviqi Agentliyi arasında Anlaşma Memorandumunun imzalanması və digər çoxsaylı məqamlar tərəflər arasında iqtisadi münasibətlərin dinamik inkişafından xəbər verir.

***Vaqif BAYRAMOV***
***XQ***

## “Günəşli” yatağında yan quyu qazılıb

**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) tarixində ilk dəfə olaraq “Günəşli” yatağında 8 saylı platformadan yan lülə quyusu qazılıb. SOCAR AQŞ-nin reallaşdırdığı mürəkkəb layihələrdən biri olan yan lülə quyusu Fasilə lay dəstəsinə uğurla qazılaraq sifarişçi təşkilat SOCAR-ın “Azneft” İstehsalat Birliyinə təhvil verilib.**



Quyuda quraşdırılmış istismar kəməri daxilində istiqamətləndirici qoyulmaqla iki kəmərdən pəncərə kəsilərək yan lülə 2985 metr dərinliyə qazılıb. Qazma əməliyyatları yerinə yetirilən zaman təzyiqlərə, layların dəyişməsinə və quyu istiqamətinə tam nəzarət olunub.

Quyu layihə dərinliyinə qazıldıqdan sonra müvafiq istismar quyruq kəməri xüsusi asqı avadanlığı vasitəsilə uğurla endirilib. Udulmaya meyilli layların mövcudluğunu nəzərə alaraq SOCAR AQŞ quyuda ilk dəfə olaraq yeni texnologiyalardan istifadə etməklə istismar quyruq kəmərini sementləyib. Həmin kəmər quyuağzı avadanlıqla birgə plana uyğun olaraq kipliyə yoxlanılıb, sifarişçi tərəfindən təyin edilmiş hədəflər üzrə obyekt tam açılıb və quyu yüksək debitlə istismara verilib.

SOCAR AQŞ-nin baş direktoru Samir Mollayevin bildirdiyinə görə, yan lülə quyularının qazılması uzun illər istismarda olan bir çox quyunun debitini artırmaq baxımından önəmlidir. Onun dediyinə görə, “Günəşli” yatağında 300-dən çox quyunun hasilatını yenidən bərpa etmək üçün yan lülə quyularının qazılması xüsusi əhəmiyyət kəsb edir. “Bu, ölkənin neft hasilatının uzunömürlülüyünün təmin edilməsinə, quyuların daha məhsuldar olmasına, eləcə də qazma işlərinin səmərəliliyinin artırılmasına xidmət edəcək”,–deyə o əlavə edib.

***XQ***



## 9 ayda 26,5 milyard dollarlıq məhsul ixrac olunub

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı “İxrac icmalı”nın oktyabr sayına əsasən, 2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycanın ümumi ixracı 26,5 milyard ABŞ dolları təşkil edib. Hesabat dövründə qeyri-neft sektoru üzrə ixrac 2022-ci ilin 9 ayı ilə müqayisədə 10,6 faiz artaraq 2,4 milyard dollar olub.**

Nəşrin məlumatına görə, cari ilin yanvar-sentyabr ayları ərzində ölkəmizdən 616,3 milyon dollar dəyərində yeyinti məhsulları ixrac edilib. Hesabat dövründə spirtli və spirtsiz içkilərin ixracı 3,3 dəfə, elektrik enerjisi 2,7 dəfə, qara metallardan məmulatların ixracı 34,3 faiz, meyvə-tərəvəz ixracı isə 7,1 faiz artıb.

2023-cü ilin yanvar-sentyabr aylarında aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 8,4 faiz artaraq 641,2 milyon dollar təşkil edib. Qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 22,4 faiz artaraq 145,9 milyon dollara çatıb.

Bu ilin sentyabr ayında ölkəmizdən 223,89 milyon ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixracı olunub. Bunun da 44,9 milyon dolları yeyinti məhsullarının, 178,9 milyon dolları isə qeyri-yeyinti məhsullarının payına düşüb.

## Paytaxtda ticarət dövriyyəsi 20 milyard manatı keçib



**Cari ilin yanvar-avqust aylarında Bakıda ticarət dövriyyəsinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 3,7 faiz artaraq 20 milyard 372,8 milyon manata çatıb.**

Bakı Şəhər Statistika İdarəsindən bildirilib ki, ticarət şəbəkəsində satılmış ərzaq məhsullarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faiz artaraq 11 milyard 262 milyon manata, qeyri-ərzaq məhsullarının həcmi isə 5,2 faiz artaraq 9 milyard 110 milyon manata bərabər olub. İstehlak məhsullarının 35,7 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 47,4 faizi fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 16,9 faizi isə paytaxtın məhsul bazarlarında satılıb.

***XQ***

# Ağbənd körpüsü Naxçıvana açılan qapıdır

**Azərbaycanın əlverişli geosiyasi məkanda, qlobal nəqliyyat dəhlizlərinin qovşağında yerləşməsi region dövlətləri ilə əməkdaşlığın genişlənməsinə, ölkəmizin beynəlxalq nüfuzunun getdikcə artmasına səbəb olub. Ötən müddətdə Azərbaycanda ən müasir nəqliyyat infrastrukturu–beynəlxalq səviyyəli aeroptlar, dünya standarlarına tam cavab verən magistral avtomobil və dəmir yolları, eləcə də Bakı Dəniz Ticarəti Limanı yaradılıb. Bu baxımdan indi ölkəmizin ərazisi beynəlxalq yüklərin təhlükəsiz və sürətlə daşınması üçün ən əlverişli məkan sayılır. Məhz bu səbəbdəndir ki, son zamanlar Azərbaycanla nəqliyyat və logistika sahəsində əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır.**



Yaxın gələcəkdə isə ölkəmizin təşəbbüsü və iştirakı ilə region üçün daha bir önəmli layihənin gerçəkləşdirilməsinə başlanılacaq. Bu, İran ərazisindən keçməklə ölkəmizin qərb ərazisini Naxçıvanla birləşdirən yeni avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturudur. Sözügedən layihə təcavüzkar Ermənistanın uzun illər blokadada saxladığı Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat bağlantısının yaradılmasına imkan yaratmaqla yanaşı, ölkəmizin ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin şaxələndirilməsi baxımından da xüsusi önəm daşıyır.

Təsadüfi deyil ki, oktyabrın 6-da İranın yol və şəhərsalma naziri Mehrdad Bəzrpaşı qəbul edən Prezident İlham Əliyev Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasiminin önəmini vurğulayaraq bunun iki ölkə arasında dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyini bildirib.

Azərbaycanın həm ikitərəfli, həm də çoxtərəfli formatlarda nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı fəaliyyətini davam etdirdiyini bildirən dövlətimizin başçısı sözügedən layihənin təməlinin qoyulmasının yolların şaxələndirilməsi baxımından da önəmini vurğulayıb. Qeyd olunub ki, ölkələrimizi birləşdirən və region üçün böyük əhəmiyyətə malik olan avtomobil və dəmir yollarının çəkilişi bütün bölgədə sabitliyə və əməkdaşlığa xidmət edəcək. Rəisi İrandan keçməklə Naxçıvanla bağlantı yaradacaq keçidin tikintisinin sürətləndirilməsini istəyir

Eyni zamanda, İran Prezidenti İbrahim Rəisi də ölkəsindən keçməklə Naxçıvanla bağlantı yaradacaq keçidin tikintisinin sürətləndirilməsinin vacibliyini vurğulayıb. İran hökumətin oktyabrın 8-də keçirilən iclasında İbrahim Rəisi bildirib ki, bu layihənin işə düşməsi iki ölkə, eləcə də region ölkələri arasında mübadilə, iqtisadi və ticarət əlaqələrinin səviyyəsini artıracaq.

Qeyd edək ki, oktyabrın 6-da Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında “Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu” çərçivəsində avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirilib. Bununla da layihə çərçivəsində tikinti işlərinə start verilib.

Tədbirdə Araz çayı üzərindən tikintisi başlanılan körpünün koordinatları və texniki parametrləri, körpüyə yaxınlaşma yolu layihəsi, ərazidə yaradılacaq müvafiq sərhəd-gömrük məntəqəsinin göstəriciləri, çayın əvvəlki məcrasına qaytarılma məqsədilə görüləcək sahilbərkitmə və məcratəmizləmə tədbirləri və İran ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında inşa ediləcək yeni dəmir yolu xətti və körpülərinin planları barədə aidiyyəti dövlət qurumlarının məlumatları dinlənilib. Qeyd olunub ki, Ağbənd avtomobil yolu ilə gündəlik 1100 avtomobilin, 30 avtobusun, eləcə də 15 min insanın sərhəddən keçidi təmin olunacaq.

Baş nazirin müavini Şahin Mustafayev bildirib ki, bu yol tranzit yüklərin daşınmasına da xidmət etməklə həm Azərbaycan, həm İran, həm də region üçün əhəmiyyətli olacaq. Onun sözlərinə görə, Şərqi Zəngəzur iqtisadi rayonu üçün zəruri infrastruktur rolu oynayacaq bu yolun istifadəyə verilməsi nəticəsində bölgə logistik mərkəzə çevriləcək. Yaxın vaxtlarda isə ərazidə avtomobil yolu ilə yanaşı, dəmir yolu körpüsünün də tikintisi nəzərdə tutulub.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### EKSPERT RƏYİ

**Samir HEYDƏROV,**
**iqtisadçı ekspert**



Oktyabrın 6- da Azərbaycan–İran hökümət nümayəndələrinin iştirakı ilə Zəngilan rayonunun Ağbənd yaşayış məntəqəsi yaxınlığında avtomobil yol körpüsünün təməli qoyuldu. Yeni yol infrastruktur layihəsi çərçivəsində sərhəd buraxılış məntəqəsinin, eyni zamanda, ərazidə abadlıq quruculuq işlərinin yerinə yetrilməsi ilə yanaşı, gələcəkdə dəmir yolunun da çəkilməsi nəzərdə tutulur. Bu yol infrastrukturu İran İslam Respublikasından keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat dəhlizinin yaradılmasına, eləcə region ölkələrinin tranzit imkanlarının artmasına xidmət edəcəkdir. Perspektivdə isə bu infrastrukturdan enerji dəhlizi kimi elektrik enerjisinin ixracında da istifadə oluna bilər.

Məlum olduğu kimi, Ermənistanın qeyri-konstruktiv mövqeyi, Azərbaycanla sülh müqaviləsinin imzalamaması və prosesi uzatması Zəngəzur dəhlizinin açılmasını da ləngidir. Ermənistan özünün əvəzolunmaz tranzit ölkə statusunda olduğunu zənn edərək Şərq-Qərb dəhlizinin reallaşmasının qarşısını alır. Baxmayaraq ki, bu meqalayihənin reallaşması onun öz iqtisadiyyatına da fayda verə bilər.

Azərbaycanın əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və hazırda ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən balanslı xarici siyasəti nəticəsində qarşıya qoyulan bütün hədəfləri həyata keçirmək mümkün olub. Tarixi mehriban qonşuluğa və dostluq siyasətinə əsaslanan Azərbaycan–İran münasibətlərində yaranmış anlaşılmazlıqları dəf edən ölkələrimiz artıq iqtisadi əlaqələri dərinləşdirmək yolunu tutublar. Elə hər iki ölkənin birgə səyi ilə reallaşdırılacaq yeni yol infrastrukturu layihəsi də məhz bu məqsədə xidmət edir. Bu yolun açılması, həm də faktiki olaraq qlobal nəqliyyat sistemində inqilabi xarakter daşıyan Qərb-Şərq meqalayihəsinin reallaşdrılması deməkdir. Özünün yol infrastrukturunu şaxələndirməyi hədəfləyən Azərbaycan qarşıdakı illər ərzində beynəlxalq yüklərin Qərb istiqamətinə daşınmasına mühüm töhfə verə bilər.

Yeri gəlmişkən, sentyabr ayının sonlarında qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri çərçivəsində İğdır-Naxçıvan təbii qaz kəmərinin təməlinin qoyulması regionun böyük inkşafın astanasında olmasından xəbər verir. Bütün bu layihələr isə Naxçıvanın iqtisadi inkşafına, bölgədə məşğulluq səviyyəsinin artmasına müsbət təsir göstərəcək.

# İsrail səfiri Azərbaycan xalqına təşəkkür edib



**Azərbaycandakı bacı və qardaşlarımızın dəstək mesajları bizi heyrətə gətirdi.**

Bunu İsrailin ölkəmizdəki səfiri Corc Dik mətbuata açıqlamasında bildirib.

"Cəmiyyətin müxtəlif təbəqələrindən olan insanlardan nə qədər mesaj, e-poçt, votsap və zəng aldığımızı saymağı dayandırdım. Səfirliyin darvazası önünə gül dəstələrinin düzülməsi isə, doğrudan da, ürəkaçandır. İsrail xalqı adından Azərbaycan xalqına demək istəyirəm ki, siz bizim qəlbimizi riqqətə gətirdiniz, sağ olun!", - deyə diplomat vurğulayıb.

***

Səfir Corc Dik son günlər ölkəsində baş verən hadisələrlə bağlı açıqlamasında da bildirib ki, oktyabrın 7-si Holokostdan sonra yəhudi tarixində ən qara gün kimi yadda qalacaq. O vurğulayıb ki, HƏMAS terrorçuları İsrail vətəndaşlarını öldürmək, qaçırmaq üçün ölkənin cənubundakı şəhərlərə hücum edərək gözlənilməz müharibəyə başlayıb.

Səfir bildirib ki, baş verən hadisələr nəticəsində 700-dən çox israilli ölüb, 100-dən çox adam qaçırılıb və 2000-dən çox insan yaralanıb.

"HƏMAS bir soyqırımı təşkilatıdır, onun liderləri açıq şəkildə bütün yəhudilərin öldürülməsindən danışır. Bu, onların nizamnaməsində yazılıb. Nifrət mədəniyyəti bu barbarlığın səbəbidir. Bu gün baş verənlər İsraildə görünməmiş bir hadisədir və biz bunun bir daha baş verməyəcəyinə əmin olacağıq.

İsrail ordusu HƏMAS-ın imkanlarını məhv etmək üçün dərhal bütün gücünü işə salacaq. Biz HƏMAS təhlükəsini aradan qaldıracağıq. Bu müharibədir. Təəssüf ki, bu, İsrail tarixində faciədən qalxmalı olduğumuz ilk müharibə olmayacaq.

Diplomat, eyni zamanda, beynəlxalq ictimaiyyətə müraciət edib. Səfir deyib: "Bu, xeyir ilə şərin, doğru ilə yalanın savaşıdır.

Haqq tərəfdə olduğunuzdan əmin olun və İsrailin özünü müdafiə etmək hüququnu bütün lazımi vasitələrlə dəstəkləyin.

Bu müharibə uzun sürəcək, çətin olacaq, amma biz nə etməli olduğumuzu edəcəyik və sülhü geri qazanacağıq".

XQ

# Strateji tərəfdaşlıq xalqlarımızı daha da yaxınlaşdırır

**Ölkələrimiz arasında yüksək səviyyəli səfərlərin sayının artması bir daha sübut edir ki, Azərbaycan ilə Gürcüstan arasındakı strateji tərəfdaşlıq kağız üzərində deyil. Bizim hər gün üzərində işlədiyimiz və real nəticələri olan göstəricilərimiz var.**



Bu sözləri mətbuata açıqlamasında Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili söyləyib. Onun sözlərinə görə, ən böyük nailiyyət dövlət və hökumət başçıları arasında olan mövcud xüsusi münasibətlərdir.

Ş.Papuaşvili bildirib ki, Azərbaycan ilə Gürcüstan strateji tərəfdaş kimi həm ikitərəfli, həm də beynəlxalq layihələr çərçivəsində fəal əməkdaşlıq edirlər. İki ölkə xüsusən bütün region üçün strateji əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri və Cənub Qaz Dəhlizi kimi layihələrdə çox fəal əməkdaşlıq edir.

Onun sözlərinə görə, Azərbaycan Gürcüstanın beş əsas ticarət tərəfdaşından biridir. 2023-cü ilin yanvar-avqust aylarında ölkələr arasında ticarət dövriyyəsi 980 milyon dollar təşkil edib. Bu da 2022-ci ilin səkkiz ayının göstəricilərindən 15,3 faiz çoxdur.

Parlamentin sədri deyib ki, Gürcüstan etibarlı tərəfdaş kimi Azərbaycan ilə Ermənistan arasında vasitəçi olmağa hazırdır: "Bir gün əvvəl Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Tbilisidə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən sonra bildirib ki, Gürcüstan regionda sülhün bərqərar olmasına öz töhfəsini verməyə və vasitəçi rolunu öz üzərinə götürməyə hazırdır".

"İnanırıq ki, bu görüş baş tutacaq və regionda dayanıqlı sülhə nail olacağıq", – deyə Şalva Papuaşvili vurğulayıb.

# Ölkəmiz enerji sisteminin bərpasında Ukraynaya yardım edir

**Azərbaycan Ukraynanın enerji sisteminin bərpası üçün dəfələrlə humanitar yardımlar göndərib. Bu barədə Ukraynanın Energetika Nazirliyindən bildirilib.**



Qeyd olunub ki, bu ilin sonuna qədər yeni yardım partiyasının tədarükü gözlənilir. Həmçinin bildirilib ki, Ukraynanın energetika naziri German Qaluşenko və Azərbaycanın Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri Seymur Mərdəliyev neft-qaz sənayesində əməkdaşlığı, xüsusən də ehtiyatların saxlanması və tranziti məsələsini müzakirə ediblər.

Xatırladaq ki, Prezident İlham Əliyev Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə iyulun ortalarında Energetika Nazirliyinə 7,6 milyon dollar vəsait ayrılması haqqında Sərəncam imzalayıb. Hazırda bununla bağlı hazırlıq işləri gedir. Yaxın vaxtlarda paylayıcı şəbəkələrin bərpası üçün Ukraynaya avadanlıq ötürülməsi planlaşdırılır.

XQ



# Xankəndidə tibbi xidmət gücləndirilir

**Xankəndi şəhərində digər həyati vacib sahələr kimi tibbi xidmətin təşkili ilə bağlı tədbirlər davam etdirilir.**

TƏBİB-dən bildirilib ki, oktyabrın 1-dən etibarən Xankəndi şəhərində ambulator poliklinika, tam heyətlə, eləcə də tibbi vasitələrlə təmin olunan 7 ambulans və təcili tibbi yardım briqadası fəaliyyət göstərir.

Poliklinikanın fəaliyyəti 7/24 rejimində növbəlik əsasında təşkil olunub.

XQ

# İƏT xarici işlər nazirləri Şuşada




**Bu gün Şuşada İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin Nazirlər Şurasının 27-ci iclası başlayır.**

Tədbirdə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və İqtisadi Əməkdaşlıq Təşkilatının XİN başçıları iştirak edəcəklər.

İclasda 2023-cü ildə İƏT kontekstində əməkdaşlıq çərçivəsində görülən işlər və onun nəticələri qiymətləndiriləcək, İƏT-in gündəliyində duran cari məsələlər müzakirə olunacaq.

Qeyd edək ki, İqtisadi Əməkdaşlıq Təşkilatı Azərbaycan, Əfqanıstan, İran, Qazaxıstan, Qırğızıstan, Pakistan, Tacikistan, Türkmənistan, Türkiyə və Özbəkistanın daxil olduğu regional dövlətlərarası iqtisadi strukturdur. Azərbaycan 1992-ci ildən İƏT-in üzvüdür.

# Bakıda ilk dəfə Tibb Təhsili üzrə Beynəlxalq Konfrans



**Dünən Bakıda Tibb Təhsili üzrə 8-ci Beynəlxalq Konfrans (International Conference on Medical Education, ICME) keçirilib.**

Dünyanın 20-dən çox ölkəsindən 300-ə yaxın xarici qonağı bir araya gətirən konfransda tibb təhsili sahəsinin aparıcı mütəxəssisləri iştirak edirlər.

Səhiyyə naziri Teymur Musayev qeyd edib ki, hazırda ölkədə 56 ixtisas üzrə həkim hazırlığı həyata keçirilir. Milli kadrların hazırlanmasına yönələn siyasət bu gün də davam edir.

Elm və təhsil naziri Emin Əmrullayev isə ölkədə tibb sahəsi üzrə proqramların təkmilləşdirilməsinin, təcrübə hissəsinin artırılmasının, eyni zamanda, tibb təhsili coğrafiyasının genişlənməsinin vacibliyini vurğulayıb.

Nazir azad edilən ərazilərdə yaradılacaq Qarabağ Universitetinin konseptinin hazırlandığını da bildirib: "Universitetin binası Ağdamda inşa ediləcək. İstərdik ki, orada da tibb sahəsi tədris olunsun. Bu sahədə fəaliyyət istiqamətində əməkdaşlığa hazırıq".

Sonra ATU-nun rektoru, professor Gəray Gəraybəyli, Dünya Tibb Təhsili Federasiyanın prezidenti, professor Rikardo Leon-Borkes, Birləşmiş Ərəb Əmirliklərinin Ras Al-Khaimah Tibb və Sağlamlıq Elmləri Universitetinin prezidenti professor İsmayıl İbrahim Matalka, Riphah Beynəlxalq Universitetinin kansleri Hasan Muhammed Xan, Birləşmiş Ərəb Əmirliklərinin Gulf Universitetinin kansleri professor Hossam Hamdini, Tibb Təhsili üzrə Beynəlxalq Konfransın prezidenti professor Azhar Raşid çıxış edərək konfransın əhəmiyyətindən danışıblar.

Açılış mərasimindən sonra konfrans işini müxtəlif mövzular üzrə simpoziumlarla davam etdirib.

XQ

# Ruben Vardanyanın apellyasiya şikayəti təmin edilməyib

**Azərbaycan ərazisinə qeyri-qanuni gələrək qondarma "Dağlıq Qarabağ Respublikasının dövlət naziri" vəzifəsində çalışmış və sentyabrın 27-də "Laçın" dövlət sərhədinin buraxılış məntəqəsində saxlanılan Ruben Vardanyanın həbsindən verilən apellyasiya şikayəti təmin edilməyib.**



Şikayətə Bakı Apellyasiya Məhkəməsində hakim Habil Məmmədovun sədrliyi ilə baxılıb. Onun vəkili Afət Qazıyeva müvəkkili barəsində seçilən həbs qətimkan tədbirinin ləğv edilməsini istəyib. Məhkəmə birinci instansiya məhkəməsinin qərarını əsaslı sayaraq, şikayəti təmin etməyib.

Qeyd edək ki, Azərbaycanın Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələri tərəfindən ötən müddət ərzində törədilmiş çoxsaylı terrorçuluq cinayətlərinin araşdırılması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) ibtidai istintaq aparılır. Toplanan sübutlarla, hazırda Ermənistan vətəndaşı olan 1968-ci il təvəllüdlü Vardanyan Ruben Karlenoviçin Azərbaycan Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak etmə) və 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə nəzərdə tutulan cinayət əməllərini törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Törətdiyi qeyri-qanuni əməllərə görə R.Vardanyan 27 sentyabr 2023-cü il tarixində saxlanılaraq, ittiham elan edilməklə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunub, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

XQ




# Elektrik verilişi bərpa edilib

**Qərb bölgəsində güclü külək səbəbindən elektrik enerjisinin verilişində yaranan fasilələr aradan qaldırılıb.**

"Azərişıq" ASC-nin mətbuat xidmətindən verilən məlumata görə, Gəncə şəhəri, Şəmkir və Goranboy rayonlarının bəzi yerlərində güclü külək səbəbindən elektrik enerjisinin verilişində yaranan fasilələr artıq aradan qaldırılıb. Elektrik enerjisinin verilişi bərpa olunub.

# Son həftədə koronavirusdan 5 nəfər vəfat edib




**Azərbaycanda son həftədə koronavirus infeksiyasına 361 yeni yoluxma faktı qeydə alınıb, 359 nəfər sağalıb.**

Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son həftədə COVID-19-dan 5 nəfər vəfat edib.

XQ

Bizim şərh

# Azərbaycan–Gürcüstan əməkdaşlığı Avrasiyada regional örnəkdir

*Bu dostluq və qonşuluq tandemi önəmli beynəlxalq layihələrin qarantıdır*

**Azərbaycan ilə Gürcüstan arasında yüksək səviyyədə olan iqtisadi əməkdaşlığın, eləcə də bu çərçivədə uğurlu regional münasibətlərin getdikcə möhkəmlənməsi və irimiqyaslı qlobal enerji və nəqliyyat–kommunikasiya layihələrinin (Bakı–Tbilisi–Ceyhan neft boru kəməri, Bakı–Tbilisi–Ərzurum qaz boru kəməri, Bakı–Tbilisi–Qars dəmir yolu) reallaşdırılması bölgədə sülhə və sabitliyə xidmət edir.**




İki ölkənin iqtisadi, ticari, enerji, nəqliyyat və logistika sahələrində birgə əməkdaşlığı son illərdə diamik inkişaf edib. Azərbaycan hazırda Gürcüstanın ən böyük ticarət tərəfdaşlarından biri olaraq ilk beşlikdə yer alıb. 2022-ci ildə bu ölkələr arasında ticarət dövriyyəsi 771 milyon dollar təşkil edib, ikitərəfli ticarətin saldosu müsbət 500 milyon dollar olub. Bu il ticarət 15 faizə yüksəlib, yanvar-avqust aylarında isə ikitərəfli ticarət dövriyyəsi 614 milyon dolları ötüb, ikitərəfli ticarətin saldosu müsbət 444 milyon dollar təşkil edib.

Gürcüstanın əsas ticarət tərəfdaşlarından olan Azərbaycan Respublikası dost ölkəyə yatırılan birbaşa investisiyaların həcmində də böyük pay sahibi kimi tanınıb. İndiyədək Gürcüstan Azərbaycan iqtisadiyyatına 93,8 milyon dollar, Azərbaycan isə Gürcüstana 3,2 milyard dollardan çox investisiya yatırıb. Qonşu ölkəyə qoyulan investisiyaların həcminə görə, respublikamız 2012-ci ildən etibarən 1-ci yerdə qərarlaşıb.

Hazırda Azərbaycanda 300-dən çox Gürcüstan şirkəti qeydiyyatdadır, 700-dən çox Azərbaycan sərmayəli şirkət, xüsusilə SOCAR isə Gürcüstanda uğurla fəaliyyət göstərir. Gürcüstan büdcəsinə ən çox vergi ödəyən şirkət də məhz bu qurumdur.

Azərbaycan ilə Gürcüstanın tarixi İpək Yolu üzərində yerləşməsi və ölkələrimiz tərəfindən birgə irimiqyaslı enerji və nəqliyyat layihələrinin icra edilməsi regionumuzdan keçən yük axınının həcmini dəfələrlə artırıb. Azərbaycan–Gürcüstan əməkdaşlığında nəqliyyat-logistika sahəsi xüsusi yer tutub. Ölkələrimiz arasında uğurlu regional əməkdaşlıq münasibətləri çərçivəsində irimiqyaslı qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin (Bakı–Tbilisi–Ceyhan neft boru kəməri, Bakı–Tbilisi–Ərzurum qaz boru kəməri, Bakı–Tbilisi–Qars dəmir yolu) reallaşdırılması bölgədə sülhə və sabitliyə xidmət edib.

Bu baxımdan hazırda Orta Dəhliz layihəsinin inkişafı və perspektivinin müzakirəsi daim diqqət mərkəzindədir. Ona görə də hər iki ölkə dəmir yolu xəttinin genişləndirilməsi, magistral yolların beynəlxalq səviyyədə qurulması və dəniz limanlarının gücünün artırılmasına mühüm önəm verir.

Azərbaycan və Gürcüstan Orta Dəhliz, Cənub-Qərb və digər beynəlxalq tranzit marşrutlarının inkişafında fəal əməkdaşlıq edir. Səmərəli əlaqələr nəticəsində hər iki ölkənin ərazisindən keçən tranzit yükdaşımaların həcmi də artır. Yeri gəlmişkən, Bakı–Tbilisi–Qars dəmir yolunun aşırma qabiliyyətinin 5 dəfədən çox artırılmasının nəzərdə tutulması Orta Dəhlizin daha da gücləndirilməsi məqsədi daşıyır.

Hazırda iki dost ölkə birlikdə dəmir yolu xətlərini müasirləşdirir və gələn ilin sonuna qədər bunun başa çatdırılması planlaşdırılır. Bununla da yüklərin həcminin iki dəfə artacağı gözlənilir. Bundan savayı, tezliklə Gürcüstan tərəfindən Anakliya dəniz limanının inşasına başlanılacağı və infrastrukturun yükaşırma qabiliyyətinin 100 milyon tona çatdırılacağı da bildirilir. Eyni zamanda, Şərq–Qərb avtomagistralının inşasının da yaxın vaxtlarda yekunlaşdırılacağı gözlənilir.

Şimal–Qərb qonşumuzla əlaqələr özünü iqtisadi sahədə daha çox büruzə verir. İlk olaraq iki ölkəni bir-birinə Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat–kommunikasiya layihələri birləşdirir. Bundan başqa, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər qurumlar çərçivəsində əlaqələr də mühüm əhəmiyyət kəsb edir.

SOCAR Energy Georgia MMC Gürcüstanın qazla təmin edilməsində mühüm rol oynayır. 2006-cı ildə qurulan bu şirkət yalnız Gürcüstan ərazisində fəaliyyət göstərir. MMC-nin əsas fəaliyyət sahəsi Gürcüstanda neftin topdan və pərakəndə satışı, neft və neft məhsullarının, həmçinin mayeləşdirilmiş qazın ölkəyə idxalı, neft terminalı və anbarlarının tikintisidir. Şirkət Gürcüstandakı neft satışının 72 faizinə, dizel satışının isə 61faizinə nəzarət edir, bundan başqa, Kulevi neft terminalı da şirkətin ixtiyarındadır. ARDNŞ Gürcüstana hər ay 20 min ton neft məhsulu, həmçinin 15 min ton benzin idxal edir.

Azərbaycan-Gürcüstan əməkdaşlığında energetikanın ənənəvi sahələri ilə yanaşı, "Yaşıl enerji dəhlizi" layihəsi də xsusi yer tutur. Bu məsələdə də hər iki ölkə Avropa dövlətləri ilə sıx əməkdaşlıq edir və yaxın aylarda bu təşəbbüsün texniki-iqtisadi əsaslandırılması hazırlanaraq konkret işlərə start veriləcək. Bu istiqamətə böyük sərmayə qoyuluşu nəzərdə tutulur və beləliklə, "Yaşıl enerji dəhlizi", enerji kabeli inşa edilərək həm Azərbaycan–Gürcüstanın, həm də tərəfdaş ölkələrin enerji təhlükəsizliyi güclənəcək.

Bu məqamda yeni bir inkişaf mərhələsi kimi, 2022-ci il dekabrın 17-də Rumıniyanın paytaxtı Buxarestdə imzalanan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i xüsusi qeyd edilməlidir. Bu sənəd yeni dünya düzəninin formalaşdığı bir mərhələdə Avropanın iqtisadi və enerji təhlükəsizliyinin təmin olunması prosesi ilə bağlı zəncirin ən vacib həlqələrindən biridir. Mühüm əhəmiyyətə malik həmin saziş hər iki ölkənin yalnız regionda deyil, həmçinin Avropa ölkələri ilə münasibətlərində etibarlı tərəfdaş olmasının daha bir sübutudur.

Əlbəttə, iki qardaş dövlət, eləcə də digər qonşu ölkələr tərəfindən birgə reallaşdırılan layihələr nəticəsində əldə edilən iqtisadi uğurlar Prezident İlham Əliyevin vurğuladığı kimi, təkcə Cənubi Qafqaz regionu üçün deyil, böyük mənada Avrasiya üçün mühüm məna daşıyır, tərəflər arasında dostluq və strateji tərəfdaşlığı gücləndirir.

İstər Azərbaycanda, istərsə də Gürcüstanda diqqətçəkən inamlı inkişaf bu ölkələrin ictimai-siyasi sabitliyinin, hər iki dövlət vətəndaşlarının hökumətə olan dəstəyinin məntiqi nəticəsidir. Çünki sabitlik və hökumətin aydın gələcəyə yönələn baxışları bir çox önəmli layihələr icra edilməsinə imkan verir, həm iqtisadiyyatın dinamik artmasını, infrastruktur layihələrinin uğurla icrasını və əhalinin rifahının getdikcə yaxşılaşmasını şərtləndirir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Azərbaycan–Rusiya nəqliyyat-logistika əməkdaşlığı



**Oktyabrın 9-da Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyası hökuməti sədrinin birinci müavini Andrey Belousov ilə görüşüb.**

Görüşdə nəqliyyat-logistika sektorunda əməkdaşlığın perspektivləri, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinin icrası və gəmiqayırma sahəsində kooperasiya məsələləri müzakirə edilib.

***XQ***

# Müdafiə naziri hərbi hazırlığa dair tapşırıqlar verdi

**Oktyabrın 9-da müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.**



Müdafiə naziri Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdırılıb. Bildirilib ki, dövlət başçısının çıxışlarından irəli gələn mühüm məsələlərin icrasında Ordumuzun üzərinə düşən bütün vəzifələr vaxtında yerinə yetirilməlidir.

Ordumuzun daha da gücləndirilməsi ölkəmizin prioritet məsələlərindən biri olan təhlükəsizliyin təmin edilməsində vacib amillərdən biri olduğu qeyd olunub.

Azərbaycan–Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti təhlil edilib. Hava hücumundan müdafiə, kəşfiyyat və əks-kəşfiyyat, radioelektron mübarizə və digər bölmələrin gücləndirilməsinə dair konkret tapşırıqlar verilib.

Azərbaycan Ordusunun gələcək fəaliyyət istiqamətinə dair qarşıya qoyulan tapşırıqların dəqiqləşdirilməsi və müvafiq planların yenilənməsi ilə bağlı aidiyyəti üzrə göstərişlər verilib.

Azərbaycan Ordusunda keçirilən döyüş hazırlığı tədbirlərində yüksək texnologiya və xüsusi hazırlıqlı heyətin imkanlarından səmərəli istifadə edilməsinin əhəmiyyəti vurğulanıb.

Qış dövrü ərzində bölmələrin döyüş hazırlığı və hərtərəfli təminatı məsələləri, eləcə də təhlükəsizlik qaydalarına əməl olunması ilə bağlı qoşun növü komandanlarına müvafiq tapşırıqlar verilib.

General-polkovnik Z.Həsənov hərbi hissələrdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi və hərbi intizamın möhkəmləndirilməsi ilə bağlı vəzifəli şəxslərə aidiyyəti üzrə göstərişlər verib.

Müdafiə naziri Qarabağ bölgəsində döyüş texnikası, silah-sursat, xüsusilə mina və əldəqayırma partladıcı vasitələrin müsadirə edilməsi, o cümlədən ərazilərin minalardan təmizlənməsi zamanı təhlükəsizlik qaydalarına ciddi əməl olunmasına dair tapşırıqlar verib.

***XQ***

# Beynəlxalq Astronavtika Konqresi tarixə qovuşdu

*Onun elmi qənaətləri isə gələcəyə xidmət edəcək*

**74-cü Beynəlxalq Astronavtika Konqresində 132 ölkədən 5404 nümayəndə iştirak edib. "IAC" tarixində ilk dəfə idi ki, tədbirə bu sayda – 132 dövlətdən təmsilçi qoşulmuşdu. Ən böyük nümayəndə heyətləri Hindistan, ABŞ, Çin və Türkiyədən gəlmişdi. Özbəkistan, Türkmənistan və Qazaxıstan isə konqresə ilk dəfə qatılmışdı.**




Bakı Konqresinə 95 ölkədən 3600 elmi məqalə təqdim edilmişdi. Bu, "IAC" tarixində ölkə sayı ilə bağlı rekord rəqəm idi. Həmin məqalələrdən 2311-i konqresə qəbul edilmişdi. Həmçinin Azərbaycan da bu il həmin istiqamətdə ilkə imza atıb. Tədbirə rekord sayda – 214 məqalə ilə qoşulub. Azərbaycan ən çox elmi məqalə təqdim edən ölkələr siyahısında ABŞ, İtaliya, Hindistan və Çindən sonra beşinci yerdə qərarlaşıb.

Bakı Konqresi, həmçinin əldə edilmiş sponsorluq paketlərinin sayına görə rekord göstərici qazanıb. 22 şirkət tədbirə sponsorluq paketi alıb. Bu, son beş ölkədə – Avstraliya, Almaniya, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri və Fransada keçirilmiş konqreslərlə müqayisədə ən yüksək göstərici idi.

### 55 təşkilat Astronavtika Federasiyasına üzv oldu

İlk dəfə olaraq 55 təşkilat eyni vaxtda – məhz Bakı Konqresi zamanı Beynəlxalq Astronavtika Federasiyası ailəsinə üzv oldu.

Konqresin digər hədəfi isə tədbirdə gənclərin daha geniş miqyasda iştirakını təmin etmək idi. Bakı Konqresi öz hədəfinə çatıb. Belə ki, tədbir iştirakçılarının 50 faizini 35 yaşa qədər olan gənclər təşkil edirdi. Tədbirə təkcə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) xətti ilə 500 tələbə qoşulmuşdu. Eyni zamanda Türkiyənin "Teknofest" festivalının 500 yarışmaçısı tədbirə gəlmişdi.

### İlon Maskın onlayn çıxışına 40 milyondan çox baxış olub

Konqresinin gündəliyi zəngin oldu. Beş gün ərzində 423 interaktiv təqdimat, 168 texniki, 7 plenar sessiya və 20 qlobal netvörkinq forumu keçirilib.

İlk dəfə olaraq Bakı Konqresində ABŞ və Afrikadan olan nümayəndələrlə dəyirmi masaların keçirilməsinə nail olundu.

Konqresin zirvə nöqtələrindən biri oktyabrın 5-də "Space X" şirkətinin təsisçisi İlon Maskın tədbirdə onlayn formada çıxış etməsi oldu. İ.Mask onlayn çıxışı zamanı "SpaceX"in kosmik fəaliyyəti barədə sualları cavablandırdı, hazırda icrası davam edən layihələrinin təfərrüatlarını bölüşdü. O qeyd etdi ki, "Starship" kosmik gəmisi və "SpaceX"in "Starship" adlanan super ağır raketi ekipajı, həmçinin yükləri Yer orbitinə, Aya, Marsa və ondan kənara daşımaq üçün nəzərdə tutulmuş tamamilə təkrar istifadə edilə bilən nəqliyyat sistemidir. "Starship" dünyanın indiyə qədər hazırlanmış ən güclü buraxılış aparatıdır, 150 metrik tona qədər tamamilə təkrar istifadə edilə bilən və 250 metrik tona qədər sərf edilə bilən yük daşıya bilir. İ.Maskın sözlərinə görə, "Starship" gəmisi 3-4 ildən sonra Marsa maneəsiz enə, həmçinin kosmik laboratoriya kimi istifadə oluna bilər. Onun kosmosda istənilən müddətdə qalması mümkündür.

Təsadüfi deyil ki, növbəti rekord göstəricini İ.Maskın bu çıxışı qazandı. "X" platformasında onun 60 dəqiqəlik onlayn çıxışının yer aldığı paylaşımına 40 milyondan çox baxış olub.

### Şamaxı Rəsədxanasının əlaqələri genişləndi

Konqresdə N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının (ŞAR) alimləri də iştirak edib və iki elmi məruzə təqdim ediblər.

Beynəlxalq konqresdə iştirakçılar ilə qlobal tendensiyalar, astronomiya sahəsində tərəfdaşlıq və əməkdaşlıq yolları müzakirə edilib.

Alma-Ata Dövlət Universitetindən olan alimlər rəsədxana ilə birgə elmi tədqiqatların aparılması üçün ŞAR-ın şəhər bölməsində olublar. Yekunda birgə əməkdaşlığın aspektləri müzakirə olunub.

Qazaxıstanın Fesenkov adına Astronomiya İnstitutu ilə Şamaxı Astrofizika Rəsədxanası arasında əməkdaşlığın rəsmiləşdirilməsi, əməkdaşlıq çərçivəsində təcrübə mübadiləsinin həyata keçirilməsi üçün qarşılıqlı elmi ezamiyyətlərin təşkili və birgə elmi tədqiqatların aparılması üzrə ilkin razılıq əldə olunub.

Həmçinin türkdilli dövlətlərin birgə Astronomiya Cəmiyyətinin təsis edilməsi ilə bağlı danışıqlar aparılıb və bu istiqamətdə birgə işlərə başlanması nəzərdə tutulur.

***XQ***



# Hərbi Prokurorluqda geniş kollegiya iclası

**2023-cü ilin birinci yarımilində respublikanın Hərbi Prokurorluq orqanlarında qeydə alınmış qəsdən adam öldürmə, qəsdən adam öldürməyə cəhd və özünü öldürmə həddinə çatdırma cinayətləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyin vəziyyətinin, cinayət hadisələrinin baş verməsinin səbəb və şəraitinin, həmin cinayətlər üzrə istintaq təcrübəsi və məhkəmə nəticələrinin ümumiləşdirilməsinin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**

Kollegiya iclasını açıq elan edən Baş prokurorun müavini – Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, xalqımızın Ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasətini dövrün tələblərinə uyğun reallaşdıran Prezident İlham Əliyevin yüksək erudisiyası, mükəmməl siyasi strategiyası və yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin və əzmkarlığının vəhdəti sayəsində dövlətimizin daha da qüdrətlənməsi və əhalinin rifahının hərtərəfli yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur. Hərbi prokuror Xanlar Vəliyev, həmçinin vurğulayıb ki, Prezidentin ölkəyə rəhbərlik etdiyi 20 ildə qazanılmış misli görünməmiş uğurlarda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti də mühüm əhəmiyyət kəsb etməkdədir.

Bundan sonra, məruzəçilər - Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin rəisi, ədliyyə polkovniki Hümmət Məmmədov və İstintaq idarəsinin rəis müavini, ədliyyə müşaviri Rüstəm Ələsgərov kollegiya iclasının həsr olunduğu məsələlər barədə çıxış ediblər. Məruzələr ətrafında geniş fikir mübadiləsi aparılıb.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, şəxsi heyəti peşəkar hərbi qulluqçularla komplektləşdirilib, hərbçilərin nəzəri bilik və peşə, həmçinin mənəvi-psixoloji hazırlıq səviyyəsi artırılıb, qeyd olunanlar nizam-intizamın və qanunçuluğun daha da möhkəmlənməsini şərtləndirib.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev xüsusi vurğulayıb ki, bütün bunların nəticəsində 2022-ci ilin birinci yarımili ilə müqayisədə 2023-cü ilin eyni dövründə qeydə alınmış qəsdən adam öldürmə cinayətləri 20 faiz, qəsdən adam öldürməyə cəhd cinayətləri 66,7 faiz, özünü öldürməyə cəhd hadisələri isə 75 faiz azalıb.

***XQ***

Təqvim yada salır

# Həyat sevgisində əbədiyyət qazanmış insan



**İnsan həyatının mənası çevrəsindəki insanlardan tutmuş ölkəsinə və bütövlükdə, dünyaya hansı ölçüdə gərəkliyi ilə ölçülür. Xidmət çevrəsi böyüdükcə yaşanmış ömrün çəkisi, içtimai-bəşəri dəyəri də yüksəlir. Gərəkliliyin daimiliyi əbədiyyətə çevrilir. Bu mənada ölümsüzlüyü dünyasını dəyişəndən sonra həyatda silinməz izləri qalanlar qazanırlar. Belə dəyərli, unudulmaz soydaşlarımızın sırasında unudulmaz şərqşünas alim Aida xanım İmanquliyevanın özünəməxsus yeri var.**

Aida xanım İmanquliyeva qısa ömründə bu şərtlərin hamısını yerinə yetirmiş, ürəklərdə özünə abidə qoymuşdu. Ölməzliyi ölümündən sonra qoyub getdiyi əsərləri ilə qazanan bu gözəl, nəcib xanımı, görkəmli şərqşünas alimi unutmaq olarmı? Tanınmış ziyalı ailəsində doğulub tərbiyə alması onun həyatda qazandığı uğurların möhkəm özülü olmuşdur. Aida xanımın görkəmli jurnalist, pedaqoq, Əməkdar elm xadimi Nəsir İmanquliyev kimi atası, əsilzadə ailəsindən olan Gövhər İmanquliyeva kimi müdrik, mehriban, duyğulu, cəfakeş, tələbkar anası olmuşdur. Ulu yaradan ona hər şey bəxş etmişdi: gözəllik, zəka, fədakarlıq, alicənablıq, yurd sevgisi, bəşəri dəyərlərə bağlılıq.

Aida xanım Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin ərəb şöbəsində təhsil almış, Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiranturanı bitirmişdi. Elm sahəsində yeniliklərə imza atan professor, həm də yüksək idarəçilik keyfiyyətləri, ictimai-siyasi fəallığı, böyük vətəndaşlığı ilə seçilirdi.

Akademik Ziya Bünyadov onun barəsində belə demişdi: "Aida xanım böyük zəhmətkeş və özünə qarşı həddindən ziyadə tələbkar bir alim olmuşdur". Sankt-Peterburq Universitetinin professoru Olqa Frolova isə Aida xanımla bağlı söyləmişdir: "Bütün ərəb dünyası alimləri professor Aida İmanquliyevanın əsərlərini oxuyur və onu ehtiramla yad edirlər. Onlar məhz bu əsərlərdən öz yaradıcılıqları, Afrika, Asiya və demək lazımdır ki, dünyanın bütün ölkələrinin yazıçılarını öyrənmək, başa düşmək üçün güc alırlar".

SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının qərarı ilə ona "Xarici Asiya və Afrika xalqları ədəbiyyatı" ixtisası üzrə 1991-ci ilin mart ayında professor elmi rütbəsi verilmişdi. Aida İmanquliyeva Azərbaycanda ilk qadın - ərəbşünas elmlər doktorudur. O, milli şərqşünaslıq elmini xarici ölkələrdə keçirilən beynəlxalq konfrans və simpoziumlarda yüksək səviyyədə təmsil etmişdir.



Dünya şərqşünaslığında ərəb məhcər ədəbiyyatının ən tanınmış tədqiqatçısı olan Aida xanım bu problemə "Mixail Nuaymə və Qələmlər birliyi", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatının korifeyləri" monoqrafiyalarını və 70-dən artıq elmi məqalə həsr etmişdir.

Aida xanımın rəhbərliyi ilə Şərq filologiyası ilə bağlı toplular və ərəb ədəbiyyatı nümunələrinin tərcümələri kitab şəklində işıq üzü görmüşdür. "Yeni ərəb ədəbiyyatının korifeyləri" adlı fundamental əsər rus, Azərbaycan, türk təşkilatı tərəfindən ərəb dilində nəşr edilmişdir.

O, keçmiş SSRİ-də Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olmuşdur. Aida İmanquliyeva 1991-ci ilin avqustundan Şərqşünaslıq İnstitutunda direktor vəzifəsini icra etməyə başlamış və həmin ilin dekabrında isə direktor vəzifəsində çalışmışdır.

Aida xanım İmanquliyeva elmi işlərlə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. O, Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatından dərs demişdir. Aydın məntiqi, fitrətən xəlqiliyi, həssaslığı, dəqiqliyi və ən başlıcası, xeyirxahlığı onu hamının gözündə ucaltmışdır. Aida xanım yenilik duyğusuyla hər gələn sabahı gözləyən və tələbələrində də bunu görmək arzusuyla yaşayan elm, təhsil fədaisi, Azərbaycan elminin, təhsilinin, maarif və mədəniyyətinin əsl cəfakeşi olmuşdur.

Dahi Sokratdan soruşurlar: İnsanda ən çox nəyi qiymətləndirirsən? "İnsaniyyəti", - deyə Sokrat cavab verir. "Bəs insaniyyət deyəndə nəyi başa düşürsən?" sualına isə "İnsana layiq olan keyfiyyətləri", - deyə cavab verir. Gündəlik gərgin iş rejimi Aida xanımı xanımlıqdan məhrum edə bilməmişdi. O, hər şeydən əvvəl öz ailəsinə bağlı gözəl qadın, qayğıkeş bir ana idi. Aida xanım sevimli qızları Nərgiz və Mehriban xanımın təlim-tərbiyəsi ilə çox ciddi məşğul olmuş, onları həyata yetkin insanlar kimi hazırlamışdır.

Aida xanım istedadı, xeyirxahlığı, nəcibliyi, mərdliyi, sadəliyi, Vətənə sədaqəti, insanlara sevgisi ilə hər zaman seçilmiş, ucada dayanmışdır. Azərbaycan qadınlarına xas olan ən nəcib keyfiyyətlər Aida xanımda ən yüksək təcəssümünü tapmışdı.

Professor Nərgiz Paşayevanın çıxışında qeyd edildiyi kimi: "O, doğrudan da, parlaq və nadir bir insan idi. Onun ucalığı heç kəsin kiçilməsi demək deyildi. Onun parlaqlığı heç kəsi zülmətə qərq etmək vadarlığına gətirib çıxarmırdı. Onun zahiri gözəlliyi müqabilində çox zəngin daxili aləmi var idi. Bu insan, doğrudan da, mükəmməl əqidəyə, möhkəm prinsiplərə malik bir insan idi. O, göründüyü kimi olmağı bacaran və olduğu kimi görünməyi bacaran insanlardan idi. Əlbəttə, o, bizim ailəmizin və başımızın tacı olub. O, bizim ürəyimizin məlhəmi olub".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva isə Aida xanım haqqında belə yazır: "Aida xanımın bütün elmi yaradıcılığı Azərbaycan elminin düşüncələrinin, fəlsəfəsinin, İslam aləmində yayılmasına nail olmuşdur. Bütün bu sahələrdə Aida xanımın elmi irsi bu gün də yaşayır və dövlətimizə xidmət edir".

**Günel MƏLİKLİ,**
**AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent**

# Cənub bölgəsinin ədəbi dünyası

**Azərbaycan Yazıçılar Birliyi (AYB) Lənkəran bölməsinin 45 yaşı tamam olur. Bölgədə ədəbi mühitin yaranmasının isə qədim tarixi var. Lənkəran şəhəri orta əsrlərdən bölgənin mədəniyyət mərkəzi olub. Cənub bölgəsində yazıb-yaratmış alimlərdən, şairlərdən zəngin irs qalıb.**

Şah İsmayıl Xətainin ulu babası Şeyx Səfiəddin Lənkərana elm öyrənmək üçün gələnlərdən olub. O da, digərləri də öz irfani fikirlərini xalqa şeirlə çatdırıblar. Bu böyük şəxsiyyətlərin yaradıcılığı bölgə ədəbiyyatının ilkin nümunələri sayılır.

XIX əsrin ortalarında Lənkəranda məşhur ədəbi məclis - "Fövcül-füsəha" ("Gözəl danışanlar məclisi") fəaliyyət göstərib.



Məclisə Usta Hüseynqulu Şuri və Molla Fəttah Səhban, Mirzə İsmayıl Qasir rəhbərlik ediblər. Məclis XX əsrin əvvəllərinə qədər davam edərək yeni maarifpərvər ziyalıların yetişməsində müstəsna rol oynayıb. Maarifçilər isə ədəbiyyatın inkişafında misilsiz xidmətləri olub. Bu müəlliflər "Şərqi-Rus", "Molla Nəsrəddin" və başqa mətbuat orqanları ilə əlaqə saxlayıb yazılarını çap etdiriblər. Rayonda yeni yaradılan Xalq Teatrı üçün pyeslər yazılırdı. 1928-ci ildə yerli müəlliflərdən Teymur Şahverdiyevin "Altı vəfat" və "Həqiqi röya" adlı birpərdəli, Mirzə İsaq Möhsünzadənin isə "Cəmşidabad" adlı beşpərdəli pyesləri Xalq Teatrında tamaşaya qoyulub.

Ötən əsrin 30-cu illərində Lənkəranda nəşr olunan "Sosialist subtropikası" qəzeti bütün bölgənin mətbu orqanı idi. Qəzetin oxucuları altı rayonu əhatə edirdi. Bu da rayonlararası ədəbi-mədəni əlaqələrin genişləndirilməsinə xidmət edirdi. 60-cı illərdə isə bütün respublikada olduğu kimi, Lənkəranın ədəbi mühitində də yeni bir canlanma özünü göstərib. Yazarlar "Lənkəran" qəzetinin redaksiyasında və şəhər mərkəzi kitabxanasında ədəbi məclislərini davam etdiriblər. Məclisə Şəkər Aslan, Yaşar Rzayev, Mirhafiz Bahadır, Mirhaşım Talışlı kimi qələm sahibləri rəhbərlik ediblər. Burada öz imzalarını respublikada təsdiq edən ədəbi nəsil yetişib. Firudin Ağayev, Camal Yusufzadə, Vaqif Hüseynov, Əlisa Nicat, Hüseynağa Qəniyev, İltifat Saleh, Xeyrulla Mehdi, Məmmədhüseyn Əliyev, Həbib Səfərov, Manaf Manafov və başqaları məhz Lənkəran ədəbi məclislərində yetişiblər. Bu inkişaf bölgədə Azərbaycan Yazıçılar İttifaqının Zona Şöbəsinin yaradılması zərurətini yaradıb və bu da 1978-ci ilə təsadüf edib. Yazıçı Məmmədhüseyn Əliyev şöbənin məsul katibi təyin edilib. Zona şöbəsi 8 rayonu: Lerik, Yardımlı, Cəlilabad, Masallı, Astara, Biləsuvar, Neftçala və Lənkəran rayonlarını əhatə edirdi. Bu rayonların ədəbi qüvvələri bir yerə toplaşaraq ədəbi müzakirələr aparıb, maraqlı tədbirlər keçiriblər.

Cəlilabaddan Abbasağa Azərtürk, Malik Rzayev, Masallıdan Xanəli Tolış, Novruz Xoşbəxt, Rafiq Əliyev, Nurməmməd Ağa, Astaradan Novruz İbadoğlu, Aqil Yaqub, Şahverən Cavad, Lerikdən Xanlar Həmid, Nəzir Şaban, Hacıməmməd Quluzadə, Yardımlıdan Sahib Əliyev, Neftçaladan Soltan Abbas, Zabil Pərviz, Müzəffər Məzahim, Lənkərandan Vaqif Hüseynov, Həzi Əliyev, Yaşar Rzayev, Xudaqulu Canıyev, Malik Şərif, Hüccətulla Məmmədov, Mirhaşım Talışlı, Firudin Aslanov, Əli Nasir, Ziyafət Əkbərov, Etibar Əhədov, Sərraf Talıb, Baloğlan Cəlil İdrisi, gənclərdən Ağamir Cavad, Balayar Sadiq və başqaları ədəbi müzakirələrdə fəal iştirak edirdilər. Bəyənilən əsərlər çap olunmaq üçün respublikanın müxtəlif qəzet və jurnallarına göndərilirdi. Bundan əlavə şöbə ədəbi orqanlarda nəşr olunmaq üçün xüsusi səhifələr hazırlayıb redaksiyalara təqdim edirdi. Şair və yazıçıların əməkçi insanlar və tələbələrin qarşısında çıxışı onları yeni əsərlər yazmaq üçün daha da ruhlandırır, stimul verirdi. Rayonlarda tez-tez ünlü söz ustalarının yubiley tədbirləri, görüşləri təşkil olunurdu.

Lənkəran Dövlət Dram Teatrının səhnəsində Məmmədhüseyn Əliyevin "Ana fəryadı " və "Prokuror", Şəkər Aslanın "Sən kimsən, ata" və "Birtərəfli hərəkət", Vaqif Hüseynovun "Yuxuda zarafat" , Baba Rzayevin "Mirmustafa xan" və "Şeyx Zahid", Ağamir Cavadın "Füzuli" dramları müvəffəqiyyətlə tamaşaya qoyulub.

Azərbaycan müstəqilliyinə qovuşandan sonra söz və mətbuat azadlığı ədəbiyyatın inkişafı üçün yeni imkanlar yaradıb. Zona şöbəsinin məsul katibi M.Əliyevin redaktorluğu ilə "Şəfəq" jurnalı nəşr olunmağa başlayıb. Bundan başqa Lənkəranda Ş.Aslanın redaktorluğu ilə "Söz", Lerikdə Hacıməmməd Quluzadənin redaktorluğu ilə "Məşəl", Astarada Tarif Əsgərin redaktorluğu ilə "Alov" ədəbi-bədii jurnalları, Hacı Etibar Əhədovun redaktorluğu ilə "Aşkarlıq" qəzeti nəşr olunmağa başlayıb və bu mətbu orqanlar bölgədə ədəbiyyatın inkişafına böyük təkan verib.

1992-ci ildə tədqiqatçı-alim və şair Mirhaşım Talışlı "Fövcül-füsəha" məclisini yenidən bərpa edib. O, klassik ənənələri qorumaq və inkişaf etdirmək üçün şairləri əruz vəznini öyrənməyə və bu vəzndə də əsərlər yazmağa həvəsləndirib. Məclis Bakıdakı "Məcməüş-şüəra" ilə sıx əlaqə saxlayırdı.

Şəkər Aslanın və İltifat Salehin rəhbərlik etdikləri dövrlərdə AYB Lənkəran bölməsi daha da fəallaşıb. Bir çox istedadlı müəllifin kitabları işıq üzü görüb, yaddaqalan ədəbi-bədii tədbirlər təşkil olunub.

Bölmənin sədri şair İltifat Salehin vəfatından sonra üç ildir ki, AYB Lənkəran



Bölməsinin sədri vəzifəsi mənə həvalə olunub. Bu müddətdə bölmənin balansında olan otaqların sayı artırılıb, təmir işləri aparılıb və zəruri inventarla təmin edilib. Artıq bölmədə 35-40 nəfərin iştirakı ilə tədbirlər keçirmək imkanımız da var. Bölmənin əhatə etdiyi digər 5 rayonda tədbirlərin hazırlanması və həyata keçirilməsinə kömək məqsədilə əlaqələndiricilər təyin edilib. Bölmədə əvvəllər mövcud olan "Söz" ədəbi məclisinin və "Şəfəq" ədəbi-bədii jurnalının fəaliyyəti bərpa olunub. Son üç il ərzində bölməmizdə çoxsaylı kitab təqdimatları, şair və yazıçılarla görüşlər, ədəbi müzakirələr, anım və yubiley tədbirləri keçirilib. Bölmə tərəfindən ümumən 2021-ci ildə müxtəlif səpkili 36, 2022-ci ildə 45 və 2023-cü ilin 9 ayı ərzində isə 37 tədbir reallaşdırılıb.

Fəaliyyətimizin bir qolu da bölgədə yaşayan, lakin ölkənin öncül ədəbiyyat dərgilərində çap olunmayan yazarların, xüsusən də gənclərin daha genişmiqyasda tanıdılması layihəsidir. "Azərbaycan", "Ulduz", "Xəzan", "Yurd" və s. jurnallarda, "Ədəbiyyat qəzeti"ndə və digər mətbuat səhifələrində bölgə yazarlarının əsərləri vaxtaşırı dərc edilir.

AYB rəhbərliyi və Lənkəran Şəhər İcra Hakimiyyəti bölmənin fəaliyyətinə hərtərəfli diqqət göstərirlər. Ötən il və bu il bir neçə bölgə yazarının Prezident təqaüdünə, müxtəlif ədəbi mükafatlara layiq görülməsi, bir neçə nəfərin AYB üzvlüyünə qəbul olunması buna əyani sübutdur.

Bu günlərdə AYB-nin Natəvan klubunda bölməmizin 45 illik yubileyi qeyd edilib. Bundan sonra da AYB Lənkəran Zona Bölməsi bölgədə ədəbi mühitin daha da inkişafına, qarşıda duran vəzifələrin uğurla yerinə yetirilməsinə nail olmaq üçün səylərini əsirgəməyəcək.

***Qafar CƏFƏRLİ,***
***AYB Lənkəran Bölməsinin sədri, yazıçı-publisist***




# Türk xalqları filmlərinin Bakı paradı



**Xəbər verdiyimiz kimi, oktyabrın 8-də Bakıda "Şuşa - Türk Dünyasının Mədəniyyət Paytaxtı 2023" ili çərçivəsində "Qorqud Ata" III Türk Dünyası Film Festivalı baaşlanıb. Festival Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Heydər Əliyev Mərkəzi, TÜRKSOY, Azərbaycan Respublikası Kino Agentliyi və Bakı Media Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilir.**

Dörd gün davam edəcək festivalın açılış mərasimindən öncə Türk dünyasının birliyini əks etdirən videoçarx nümayiş etdirilib. Sonra tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Fərid Cəfərov festivalın məqsədinin türk xalqları arasında mədəni əməkdaşlığı inkişaf etdirmək olduğunu bildirib.

Tədbirdə digər çıxış edənlər - Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibinin müavini Sait Yusuf, "Qorqud Ata" Film Festivalının direktoru, kino tənqidçisi İhsan Kabil, Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev türk xalqları arasında müxtəlif sahələrdə, o cümlədən mədəniyyət sahəsində əlaqələr, Azərbaycanın zəngin mədəni irsi, kino ənənələri barədə məlumat veriblər. Qeyd olunub ki, bu film festivalı bütün Türk dünyasını bir araya gətirən mühüm mədəniyyət layihəsidir.

***Festival iştirakçılarından alınan qısa müsahibələri təqdim edirik:***

**Orxan Fikrətoğlu, Mədəniyyət nazirinin müşaviri, Əməkdar incəsənət xadimi:**

– Türk dünyası hər bir sahədə olduğu kimi, kino sahəsində də birləşir və bu, çox müsbət cəhətdir. Əvvəlki festivallar İstanbul və Bursada olub, indi isə kino xadimləri Bakıda toplaşıblar. İştirakçıların Şuşa şəhərinə tanışlıq səfəri və Bakıda zirvə toplantısının keçirilməsi də nəzərdə tutulur.

**Sabir Məmmədov, Azərbaycanın Xalq artisti:**

– Bakıda belə festivallar tez-tez keçirilsə, yaxşı olar. Bu cür möhtəşəm tədbirlər Azərbaycan kinosunun tanıdılması baxımından önəmlidir.

**Suğra Bağırzadə, Əməkdar artist:**

– Festival bütün Türk dünyasının birləşməsi deməkdir. Biz bir-birimizi daha yaxşı anlayırıq, bu baxımdan festival dünya miqyasında tanınmaq üçün ilkin fürsətdir.

Festivala Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistanla yanaşı, Qaqauz Yeri (Moldova), Tatarıstan, Altay və Başqırdıstandan (Rusiya Federasiyası), həmçinin azsaylı türk xalqlarından təqdim olunan 32 bədii, sənədli və animasiya filminin Nizami Kino Mərkəzində nümayişi baş tutacaq.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# İsrail Qəzza zolağını nəzarətə götürdü

## HƏMAS yaraqlıları isə raket zərbələrini davam etdirirlər

**İsrailin Baş naziri Binyamin Netanyahunun şənbə günü ölkəsinin HƏMAS-a qarşı müharibədə olduğunu bəyan etməsindən sonra Nazirlər Kabineti müvafiq qərar verib. Kabinetin səsverməsindən öncə Netanyahu İsrailin HƏMAS-dan "möhtəşəm qisas" alacağını bildirib.**



Bu gün artıq dördüncü gündür ki, Yaxın Şərqdə barışmaz hesab olunan rəqiblər arasında son 50 ilin ən qanlı silahlı qarşıdurması baş verir. Dünən İsrailin cənubundakı şəhərlər boyunca küçələrdə İsrail əsgərləri ilə HƏMAS yaraqlıları arasında ağır döyüşlər davam edib. Eyni zamanda, İsrail təyyarələri Qəzzadakı hərbi hədəflərə zərbələr endirib.

İsrailin Müdafiə Qüvvələri tərəfindən Qəzza sektorunda artıq mindən çox hərbi hədəfin vurulduğu qeyd edilib. Bununla bərabər, nazirliyin rəsmisi həmin bölgədən ölkənin ərazisinin raket atəşinə tutulduğunu deyib. Hər iki tərəfdən ölən və yaralananların sayı durmadan artır.

Qəzzada hazırda ağır humanitar böhran yaşanır. Əhalinin elektrik enerjisi və su qıtlığından kəskin əziyyət çəkdiyi bildirilir. BMT-nin dünən gecə saatlarında yaydığı son hesabata əsasən, 120 mindən çox fələstinli yaşadıqları evləri tərk etməyə məcbur qalıb və onlardan 74 mini məktəblərə sığınıb. Qeyd edək ki, Qəzza bölgəsində 2,3 milyondan çox əhali yaşayır və bu ərazi dünyanın ən sıx məskunlaşmış yerlərindən biridir.

Yaxın Şərqdə baş verənlər dünya birjalarında enerji qiymətlərinin kəskin artmasına səbəb olub. Analitiklər bahalaşmanın hərbi eskalasiyadan sonra neft daşımalarında fasilələrin yaranacağı ehtimalından qaynaqlandığını bildirirlər.

İsrail ordusu HƏMAS-ın ələ keçirdiyi bütün ərazilərdə nəzarəti bərpa edib. Bu barədə İsrail Müdafiə Ordusunun nümayəndəsi, kontr-admiral Daniel Həcəri məlumat verib. Onun sözlərinə görə, hazırda həmin ərazilərin heç birində hərbi əməliyyatlar aparılmır.

ABŞ dövlət katibi Entoni Blinken CNN telekanalına eksklüziv müsahibəsində deyib ki, Birləşmiş Ştatlar döyüşlər zamanı həlak olanlar arasında amerikalıların da olması ilə bağlı xəbərləri araşdırır.

Xatırladaq ki, ABŞ hökuməti yüzlərlə mülki vətəndaşın ölümü ilə nəticələnən terror hücumundan sonra İsrailə dəstək üçün özünün ən yeni və ən qabaqcıl təyyarədaşıyan gəmisini tam aviadaşıyıcı zərbə qrupu ilə birlikdə regiona göndərib.

Müdafiə naziri Lloyd Ostin verdiyi açıqlamada ABŞ-ın "regional çəkindirmə səylərini gücləndirmək üçün Müdafiə Nazirliyinin bölgədəki mövqeyini gücləndirmək" məqsədilə "USS Gerald R. Ford" təyyarədaşıyan gəmisinin zərbə qrupunu Aralıq dənizinin şərqinə köçürdüyünü açıqlayıb.

Bundan əlavə, müdafiə naziri ABŞ-ın Yaxın Şərqdə ABŞ Hərbi Hava Qüvvələrinin "F-35", "F-15", "F-16" və "A-10" döyüş təyyarələri donanmasını gücləndirmək üçün addımlar atdığını bildirib.

Oxucular bu məqamda haqlı olaraq fələstinlilərlə israillilər arasında son qanlı toqquşmaların nə səbəbdən başladığını soruşa bilərlər. BBC müxbiri Qüdsdən yazır ki, Fələstin ərazilərinə nəzarət edən silahlı HƏMAS qrupu, Qüdsün "Əl-Əqsa" məscidini İsrailin "təcavüz və terrorizmindən" qorumaq üçün səy göstərdiyini bəyan edib.

Məlum olduğu kimi, həmin ərazini həm müsəlmanlar, həm də yəhudilər özləri üçün müqəddəs hesab edirlər. Bir müddət əvvəl fələstinlilərin Şərqi Qüdsdəki evlərindən qovulmaq təhlükəsi ilə üzləşməsi onların qəzəbinə səbəb olub.

Belə ki, İsrail məhkəməsi Şərqi Qüdsdə Şeyx Cərrah məhəlləsində bir neçə fələstinli ailənin evlərindən çıxarılması barədə qərar verib. Məhkəmə qərarında əsas kimi həmin evlərin keçmişdə, daha dəqiq desək, 1947-ci ilə qədər yəhudilərə məxsus olduğu göstərilib.

Qərardan sonra Qüdsün əsasən ərəb əhalisinin yaşadığı hissəsində etirazçılarla İsrail polisi arasında bir ayadək davam edən toqquşmalar başlayıb. İsrail polisi isə müsəlmanlara "Əl-Əqsa" məscidinə girişi qadağan edib. Bu hadisə fələstinlilərin qəzəbini daha da artırıb.

Fələstinlilər İsrail polisini daşa tutub, İsrail polisi isə kütləni dağıtmaq üçün rezin güllələrlə atəş açıb, nəticədə 300-dək insan xəsarət alıb. Bunun ardınca HƏMAS təşkilatının hərbiləşdirilmiş qanadı İsrail ərazisini atəşə tutmağa başlayıb.

Hadisələrin sonrakı gedişatı artıq bəllidir. Oktyabrın 7-də səhər tezdən HƏMAS yaraqlıları İsrail ərazisinə beş minə yaxın raket atıblar. Bundan başqa, yaraqlılar bir neçə istiqamətdə İsrail ərazisinə soxularaq onlarla həbçini və dinc sakini əsir götürüb.

Ötən gün ABŞ, Avropa İttifaqı və Britaniya hər iki tərəfi ən qısa zamanda gərginliyi azaltmağa çağırıblar. Bu məsələ ilə bağlı Türkiyə və Rusiya prezidentləri arasında telefon danışığı olub. Türkiyə və Rusiya liderləri, eləcə də bir çox ölkələrin və beynəlxalq təşkilatların rəhbərləri tərəfləri munaqişəyə son qoymağa səsləyiblər.

BMT-nin Yaxın Şərqdə rəsmisi Tor Wennesland bildirib ki, İsraillə fələstinlilər arasında son münaqişədəki hazırkı vəziyyət "tammiqyaslı müharibə həddinə yaxınlaşıb". O, gərginliyin azaldılması üçün beynəlxalq səylərin artırılmasını vacib sayır.

Sonda bildirək ki, HƏMAS-ın hücumları nəticəsində İsraildə ölənlərin sayı 900-ə çatıb, 2616 nəfər yaralanıb. Qəzza zolağında isə ölənlərin sayının dörd yüz nəfəri keçdiyi bildirilir. Təəssüf ki, bölgədə ağır zorakılıqlar davam edir və nə vaxt bitəcəyi bəlli deyil.

***M.HACIXANLI***
***XQ***

Futbol tariximizdən

# Banişevskinin 100-cü qolu

**Bu tarixi qol 1978-ci il oktyabrın 15-də Bakıda qeydə alınmışdır. Həmin gün "Neftçi" Respublika stadionunda 41-ci SSRİ çempionatı görüşündə Dnepropetrovskın "Dnepr" komandasını qəbul etmiş və böyük hesabla qələbə qazanmışdır (4:1). Oyunun qəhrəmanı isə əfsanəvi hücumçumuz Anatoli Banişevski olmuşdur.**



İndiki kimi, onda da mülayim payız axşamı idi. Almaatalı (Qazaxıstan Respublikasının paytaxtı əvvəllər Alma-Ata adlanırdı – O.B.) hakim Mixail Çerdantsevin idarə etdiyi görüşdə bakılılardan topların ikisini İsgəndər Cavadov və Səmədağa Şıxlarov vurdular, daha iki qola isə Banişevskinin zərbələrindən sonra sevindik. Beləliklə də, Anatoli Sovet İttifaqı çempionatının güclülər dəstəsində və ölkə kuboku yarışlarında vurduğu qolların sayını 100-ə çatdırıb, ən sərrast hücumçuların "Qriqori Fedotov klubu"na üzv oldu.

"Neftçi" öz liderinin 99-cu və 100-cü qolları ilə əlamətdar olan görüşdə belə heyətdə çıxış etdi: Sergey Kramarenko, Vaqif İbrahimov, Asim Xudiyev, Rəşid Özbəyov (Arif Orucov), Valeri Oqerçuk (A.Banişevski), Tofiq Abbasov, S.Şıxlarov, Əbdülqəni Nurməmmədov, İqor Ponomaryov, Səməd Qurbanov, İ.Cavadov.

Dnepropetrovsk klubu ilə görüş bir də onunla yadda qalmışdır ki, Banişevski yaşıl meydanlarda çıxışlarını başa vurduqdan sonra komandamızın hücum xəttinin liderinə çevrilən Cavadov məhz həmin oyunda ölkə çempionatlarında ilk qolunun sevincini yaşamışdı.

"Dnepr"lə qarşılaşmadan 12 gün sonra, oktyabrın 27-də yenə həmin stadionda Kiyevin "Dinamo" komandası ilə keçirilən oyun isə Anatoli Banişevskinin SSRİ çempionatlarında vida matçı oldu. Moskvalı hakim Valeri Baskakov oyunun başa çatdığını bildirən kimi komanda yoldaşları, rəqib futbolçular, tamaşaçılar bu nadir futbol istedadını meydandan alqışlarla, gül-çiçəklə yola saldılar.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

*kafedra müdiri vəzifələrini tutmaq üçün*

MÜSABİQƏ ELAN EDİR

**1.** "Humanitar fənlər" kafedrası - kafedra müdiri.
**2.** "Maliyyə və mühasibat uçotu" kafedrası - kafedra müdiri.

Müsabiqədə iştirak etmək istəyənlərin kafedra müdiri vəzifəsinə müvafiq kafedranın profilinə uyğun yüksək peşə-ixtisas hazırlığı, elmi ad və elmi dərəcələri olmalıdır. Sənədlər Elm və Təhsil Nazirliyi Kollegiyasının 15 noyabr 2017-ci il tarixli, 5/5 saylı qərarı ilə təsdiqlənmiş qaydalara əsasən elan dərc olunandan bir ay müddətinədək akademiyaya təqdim edilməlidir.
Telefonlar – 563-13-07, 563-06-88.
Ünvan – AZ 1130, Bakı şəhəri, Azadlıq prospekti 181.

# 701-ci briqada – AXC şərəfinə yaradılmış hərbi hissə

**Azərbaycan Hərb Tarixi Muzeyində Vətən Müharibəsi Veteranları İctimai Birliyi və 701 saylı hərbi hissənin Müharibə Veteranları Şurasının dəstəyi ilə Ordumuzun təməl daşı olan 18110 - 701 saylı briqadanın yaradılmasının 32 illiyinə həsr edilmiş "Fədailər" adlı tədbir keçirilib.**



Bu münasibətlə 701 saylı hərbi hissənin müharibə veteranları şurasının üzvləri, hərbi hissənin keçmiş döyüşçüləri, veteranlar oktyabrın 9-da Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Tədbirdə hərbi hissənin müharibə veteranları şurasının sədri, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxış edərək 701 saylı hərbi hissənin yaranma tarixi, keçdiyi şanlı döyüş yolu ilə bağlı məlumat verib. Vurğulayıb ki, Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü təmin etmək üçün oktyabrın 9-da ilk desant hücum taboru - 18110 saylı hərbi hissə yaradılıb, 1992-ci ilin mart ayından adı dəyişdirilərək Şərqin ilk demokratik Respublikasının 701 gün yaşaması şərəfinə "701" adlandırılıb. Briqadanın şəxsi heyəti – əsgərdən tutmuş yüksək rütbəli zabitə kimi Qarabağ müharibəsi zamanı bütün əməliyyatların ən gərgin nöqtələrində öz vəzifələrini böyük qətiyyətlə yerinə yetirib. Şuşa rayonunun kəndlərinin, həmçinin Ağdərə, Kərkicahan, Tərtər, Xocalı, Kəlbəcərin müdafiəsi uğrunda gedən qanlı döyüşlərdə, Daşaltı, Füzuli və Murovdağ istiqamətindəki hücum əməliyyatlarında iştirak edərək böyük qəhrəmanlıq və rəşadət göstərib: "Döyüşlərdə göstərdikləri qəhrəmanlıqlara görə 701-ci briqadanın əsgər və zabitlərindən 4-ü Azərbaycanın Milli Qəhrəmanı adına, 11-i "Azərbaycan Bayrağı" ordeninə layiq görülüb, 18-i isə "İgidliyə görə" medalı ilə təltif edilib.

Bu gün 701 saylı hərbi hissənin veteranları gənclərdə hərbi vətənpərvərlik ruhunu yüksəltmək istiqamətində gərgin iş aparır. Artıq 701 saylı briqadanın döyüş yolu Müdafiə Nazirliyinin tədris müəssisələrində ətraflı öyrənilir".

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin sədri Füzuli Rzaquliyev, həmin hərbi hissənin tərbiyəvi işlər üzrə müavini, müharibə veteranı İntiqam Mirzəyev, ehtiyatda olan polkovnik-leytenant Qurban Qurbanov çıxışlarında briqadanın keçdiyi döyüş yolundan söhbət açıb, hərbçilərimizin göstərdikləri qəhrəmanlığın təbliğinin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində vacib rol oynadığını vurğulayıblar.

***Leyla QURBANOVA***
***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Tabeliyindəki obyektlər üçün mövcud olan yanğın xəbərverici sistemlərinə illik texniki xidmətlərin satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il oktyabrın 17-si saat 17.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.
Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Dənizdə və quruda yükqaldırıcı, xilasedici, qəza takelajın və yedəkləmə avadanlıqlarının yoxlanılması,təmiri, testi və sertfikatlaşması xidmətlərinin satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il oktyabrın 17-si saat 17.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1132.
Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.



# Vətənə Zəfər qazandıranlara dövlət qayğısı davamlıdır

**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Bakı Reabilitasiya Mərkəzində xidmət göstərilən qazilərlə görüş olub. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən biliriblər.**

Vətən müharibəsinin 3-cü ildönümü ilə əlaqədar keçirilən görüşdə agentliyin əməkdaşları, hərbi ekspertlər, QHT nümayəndələri, müharibə veteranları iştirak ediblər. Agentliyin İdarə Heyəti sədrinin müavini Vüqar Məmmədov 3 il əvvəl müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun əldə etdiyi tarixi Zəfərdən, qəhrəman hərbçilərimizin göstərdikləri şücaətlərdən öyünclə söz açıb, Vətən müharibəsindən sonra icra olunan geniş miqyaslı sosial dəstək proqramı çərçivəsində görülən işlər barədə məlumat verib.

Bildirilib ki, bu proqram çərçivəsində aparılan işlərin bir istiqaməti olaraq şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları olan 11 min nəfərə 49 min 500 sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Müharibə ilə əlaqədar əlilliyi olan 1990 şəxs 43 min 100 reabilitasiya vasitəsi, o cümlədən 439 hərbçi 458 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub.

QHT nümayəndələri müəssisədə əlilliyi olanlara, habelə müharibə ilə əlaqədar əlilliyi olanlara göstərilən reabilitasiya xidməti ilə də tanış olublar. Reabilitasiya kursu keçən müharibə əlilləri diqqət və qayğı, həmçinin keyfiyyətli bərpa-müalicə xidmətləri ilə əhatə olunduqlarını vurğulayıb, göstərilən yüksək qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 220 (30336) 10 oktyabr 2023-cü il, çərşənbə axşamı

İdman xəbərləri

## Avarçəkənimizin dünya gümüşü

***Azərbaycan idmançısı Diana Dımçenko İtaliyanın Barletta şəhərində keçirilən sahil avarçəkməsi üzrə dünya çempionatında uğurla çıxış edib.***



Millimizin üzvü 4 min metr məsafəni 20:11.72 dəqiqəyə qət edərək təsnifat mərhələsində finişə hamıdan əvvəl çatıb. O təsnifat mərhələsində ikinci olan Finlandiya təmsilçisi Eva Karppineni 10 saniyə qabaqlayaraq (20:21.43). A finalına vəsiqə əldə edib.

Final mərhələsində idmançılar 6 min metr məsafə üzrə güclərini sınayıblar. Diana Dımçenko həlledici mərhələdə məsafəni 32:20.94 dəqiqə ərzində qət edib. Bununla da idmançımız fransalı Cessika Berrani (32:33.92) 13 saniyə fərqlə qabaqlayaraq dünya çempionatının gümüş medalını alıb. O, yalnız irlandiyalı Monika Dukarskadan (32:09.17) geri qalıb.

Qeyd edək ki, Diana Dımçenko 2022-ci ildə Uelsdə təşkil olunan sahil avarçəkməsi üzrə dünya çempionatında da 2-ci olub.

## Beynəlxalq turnirdə qızıl mükafat

***Almaniyanın Troysdorf şəhərində atçılıq üzrə beynəlxalq turnir keçirilib.***



Yarışda Azərbaycanı Aqata Zəhrabəyova təmsil edib. Millimizin üzvü atçılıq idmanının dresaj növündə bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb.

Qeyd edək ki, A. Zəhrabəyova turnirdə "Rm Golden Showmen" atı ilə çıxış edib.

## Gimnastımız Bolqarıstanda uğurla çıxış edib

***Bolqarıstanın Plovdiv şəhərində keçirilən "Plovdiv kuboku"nda aerobika gimnastikası üzrə Azərbaycan milli komandasının üzvü Vladimir Dolmatov bürünc medala sahib olub.***



İdmançımız bu nəticəni fərdi proqramda göstərib. O, komanda yoldaşı Mədinə Mustafayeva ilə birgə cütlük proqramında isə gümüş medala sahib çıxıb.

## Triatlonçularımızın Rusiya qələbəsi

***Triatlon millimizin üzvləri Rusiyada "Ironstar Sprınt Sochı Sırıus 2023" yarışında uğurla çıxış ediblər.***



Komandamızın üzvü Toğrul Məmmədli 16-24 yaş qrupları arasında 1-ci, kişilər arasında mütləq kateqoriyada isə 9-cu yeri tutub. Kseniya Voronina isə 16-24 yaş kateqoriyasında qalib olub. Triatlonçumuz qadınlar arasında mütləq kateqoriyada 3-cü pillədə qərarlaşıb.

***Leyla SABİRQIZI***
**XQ**

Sosial şəbəkələrdən seçmələr

# Səhnəmizdə Vətən obrazı

**Bugünlərdə "Facebook"da gənc sənətşünas Turan Etibaroğlunun M.F.Axundov adına Azərbaycan Milli Dövlət Dram Teatrının aktyoru, Xalq artisti Nurəddin Mehdixanlı sənətinə olan böyük tamaşaçı sevgisini əks etdirən paylaşımı diqqətimi cəlb etdi. Orada yazılıb:**



"Hörmətli Nurəddin Mehdixanlı!

Sizin çox rollarınız var, mənə görə onların şahı xalqımızın Qarabağdakı tarixi Zəfərinə həsr olunmuş möhtəşəm tamaşadakı Vətən obrazıdır. Bu obrazla bağlı şahidi olduğum bir səhnə heç vaxt yadımdan çıxmır.

Bir dəfə tamaşa zamanı siz səhnənin önündəki pillləkəndə oturduğunuz anda bir ağsaqqal qeyri-ixtiyari yerindən durub səhnəyə yaxınlaşdı, sizi bərk-bərk qucaqlayıb ağladı...

Həmin an zalda sürəkli alqış sədaları qopdu, səhnə titrəyirdi... Xalqın, tamaşaçının sevimli aktyoruna sevgisi deyilən şey bax budur!

Əziz Nurəddin müəllim! Siz sənətinizlə Vətənin və mədəniyyətin keşiyində duran sənətkarlardansınız!"

Bu paylaşım çox sayda rəylər toplayıb. Onlardan aktrisa olmağa hazırlaşan Elmira Kərimova adlı gənc bir qız yazıb ki, onun ən böyük arzusu böyük aktyorla səhnədə tərəf müqabili olmaqdır.

***Təqdim etdi:***
***S.FİDAN***
**XQ**

## 104 yaşlı qadının yeni rekord hədəfi

**Yaş, sadəcə, bir rəqəmdir... Təyyarədən paraşütlə tullanan ən yaşlı insan – çikaqolu Doroti Hoffnerin timsalında bunu aydın görmək olar.**



104 yaşlı qadın İllinoys ştatının Ottava şəhərində 4 min 100 metr yüksəklikdən tullanma həyata keçirib. Onun cəsarətli kaskadyorluğunu nəzərə alaraq bəziləri Doroti Hoffnerin çox gənc yaşlarından paraşütlə tullanma ilə məşğul olduğunu düşünə bilər, lakin bu belə deyil. O, paraşütlə tullanmağa əslində 100 yaşı tamam olanda başlayıb. Məqsədi isə ən yaşlı insanın hündürlükdən tullanma rekordunu təzələmək olub.

Doroti Hoffnerin cəmi 7 dəqiqə davam edən tullanmadan sonra yerə toxunanda ilk sözü "Yaş, sadəcə, bir rəqəmdir" olub. Bu cəsarətli qadın indi "Ginnesin Rekordlar Kitabı"na düşməsini gözləyir.

Hoffnerin ambisiyası bununla bitmir – o, bu dəfə isti hava şarında səyahət etmək hazırlığı keçir.

***L.AZAD***
**XQ**

Elm

# İqtisadiyyat "Nobel"ini ABŞ alimi aldı

**2023-cü il üçün iqtisadiyyat üzrə Nobel mükafatı amerikalı Klaudia Qoldinə verilib.**




Nobel Komitəsi oktyabrın 9-da amerikalı tədqiqatçı Klaudia Qoldinin Nobel mükafatına layiq görüldüyünü elan edib. O, bu mükafata "əmək bazarında qadınların rolu haqqında anlayışın təkmilləşdirilməsinə" görə layiq görülüb.

**XQ**

**ABŞ-nın Rutgers Universitetinin riyazi statistika üzrə fəlsəfə doktoru Bryus Ratnerdir Pifaqorun doğulmasından min il əvvəl "Pifaqor teoremi"nin tətbiqinə dair maddi sübutlar əldə edib.**

# "Pifaqor teoremi"nin müəllifi kimdir?



Həmin məlumatlar eramızdan əvvəl 1800–1600-cü illərə aid qədim Babildə tapılan gil lövhənin üzərində cızılıb. Lövhədə Pifaqor teoreminin birbaşa isbatı yoxdur, lakin teoremin tətbiq edildiyini göstərən hesablamalar var.

Qədim yunan filosofu Pifaqor, eyni zamanda, bir çox elmi nəzəriyyələrin yaradıcısı idi. Onun ən məşhur elmi kəşfi "Pifaqor teoremi" adlanan düzbucaqlı üçbucağın hipotenuz ilə katetlərinin nisbəti qanunudur. Cüt və tək ədədli rəqəmlər haqqında riyaziyyat təlimini, rəqəmlərin həndəsi anlamı nəzəriyyəsini də Pifaqor kəşf etmişdir.

***S. FİDAN***
**XQ**




Sənət inciləri

# Dahi rəssamın "Novruz" nağılı

**"Novruzlu Azərbaycan nağılı" tablo görkəmli fırça ustası Səttar Bəhlulzadənin möhtəşəm əsərlərindən biridir.**



Bu mürəkkəb kompozisiyanı yurdumuza baharın gəlişi, bunu ifadə edən motivlər və çoxsaylı atributlar təşkil edir. Müxtəlif janrların özünəməxsus estetikasını ehtiva edən monumental əsərdə bayram xonçaları, baharın müjdəçisi olan qaranquşlar və çiçəklənən ağaclar sevinc ovqatına bələnmiş insanlar və digər milli atributlarla vəhdət təşkil edərək mənəvi dəyərlərimizin qədim və zəngin ənənələrə malik olduğu təsvir olunur.

"Novruzlu Azərbaycan nağılı" həm kompozisiya tutumuna, həm də ölçüsünə və bədii həllinə görə yeni və cəlbedicidir. Belə ki, burada Azərbaycan rəssamlığında ilk dəfə 3 janr bir araya gətirilib. Süjetli tablo, mənzərə və natürmort janrlarını uğurla birləşdirən rəssam kompozisiyanın kifayət qədər təsirliliyinə nail olub.

***N.AYTƏN***
**XQ**

Sağlamlıq guşəsi

# Sarımsaq – qoxusu var, qorxusu yox

***Sarımsaq faydalı olsa da, kəskin qoxusuna görə, çox süfrələrdən yığışdırılıb. Onu tövsiyə edən həkimlər qoxusu ilə mübarizə barədə də açıqlama veriblər.***



Həkim Tatyana Zaxarovanın fikrincə, sarımsaq yedikdən sonra yoqurt qəbulu (qatıq da olar) pis qoxunu aparır. Yoqurtda olan zülal sarımsaqdakı qoxunu neytrallaşdırır. Bu məqsədlə, həmçinin alma, təzə süd, nanə və kofe istifadə edilir.

Alimlər şüşə qablara çiy sarımsaq qoyub, üstünə müxtəlif maddələr əlavə ediblər. Nəticələr göstərib ki, yağlılıq dərəcəsi çox olan yoqurt 99 faiz uçucu qoxuları kəskin azaldır. Amma yoqurt çiy sarımsağa nisbətən bişmiş və ya qızarmış sarımsaq qoxusuna daha az təsir edib.

Yunan yoqurtunda daha yüksək zülal birləşmələri var. Alma ilə sarımsaq qoxusunu aparmaq istəyirsinizsə, onu gərək sarımsaq qəbul etdikdən dərhal sonra yeyəsiniz.

***Z.HÜSEYNLİ***
**XQ**

HAVA

# Şahə qalxan dalğalar



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin oktyabrın 9-u saat 14:00-a olan məlumatına əsasən, şimal-qərb küləyi bəzi yerlərdə arabir güclənib.**

Bildirilib ki, küləyin maksimal sürəti arabir Daşkəsəndə 28 m/s, Qobustanda 24 m/s, Gədəbəydə 16 m/s, Bakıda və Abşeron yarımadasında isə 22 m/s-dək güclənib.

Neft Daşları stansiyasının məlumatına əsasən, dalğanın hündürlüyü 2,6 metrə çatıb.

**XQ**

**Milli Hidrometeorologiya Xidmətindən verilən xəbərə görə, oktyabrın 10-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir.**

# Yenə leysan, yenə yağış...



Havanın temperaturu gecə 12-15° isti, gündüz 15-18° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 75-85 faiz, gündüz 50-60 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 12-16° isti, gündüz 16-20° isti, dağlarda gecə 0-5° isti, gündüz 5-9° isti olacaq.

***Q.QƏZƏNFƏR***
**XQ**

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin idman klubunun sədri Yusif Abbasəliyevə anası

**ƏSLİ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nicat və Sadiq Mahmudovlar Daxili İşlər Nazirliyinin Baş Əməliyyat Statistika və İnformasiya İdarəsinin rəisi Namik Həsənova anası

**SUQRA HƏSƏNOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4820
SİFARİŞ 2621
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00